

Milli azadlıqdan
şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

24 sentyabr 2025-ci il, çərşənbə
№ 171 (6998)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## Prezident və birinci xanım Nyu-Yorkda...




### İlham Əliyev və Mehriban Əliyeva BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında Baş Assambleyanın 80-ci sessiyası çərçivəsində keçirilən yüksəksəviyyəli müzakirələrdə iştirak ediblər

Bax səh. 2

## Qlobal təhlükəsizliyə birgə cavab

Bax səh. 3

## Regionun yeni xəritəsi...

### Vaşinqton sazişi Orta Dəhlizi stimullaşdırır




Bax səh. 5

## İnvestisiya Forumunda nəhəng layihə

Bax səh. 5

### Suverenliyin, konstitusiya quruluşunun əzmkar keşikçiləri

Bax səh. 3

### Qlobal inteqrasiyanı gücləndirən təşəbbüslər

Bax səh. 4

### Azərbaycan və Çin yeni imkanları araşdırır

Bax səh. 4

### Dialoq, yoxsa silahlanma yarışı...

Bax səh. 6

### NATO müttəfiqlərini qoruyacaq?

Bax səh. 7

## Gürcüstan "Maydan"a çevrilməyəcək...



Bax səh. 7

## Yaxın Şərqin taleyi: yeni səhifə, yoxsa köhnə dramın davamı...



Bax səh. 6



# Prezident və birinci xanım Nyu-Yorkda...

Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə işgüzar səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Nyu-York şəhərinin “John F.Kennedy” Beynəlxalq Hava Limanında rəsmi şəxslər qarşılayıblar.

# Əməkdaşlığımız uzunmüddətli strateji inkişaf üçün geniş imkanlar yaradır



Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan “Brookfield Asset Management” şirkətinin baş icraçı direktoru Brüs Flətt ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Brüs Flətt 2023-cü ildə ölkəmizə səfəri zamanı Azərbaycanda müşahidə etdiyi iqtisadi nailiyyətlərin və inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirib. O, rəhbərlik etdiyi şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının getdikcə genişləndiyini vurğulayıb.

Brüs Flətt Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı əldə edilmiş nəticələrə görə təbriklərini çatdırıb və bunun bölgədə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün də yaxşı imkan yaratdığını deyib.

Ölkəmizlə “Brookfield Asset Management” şirkəti arasında qurulmuş əlaqələrin uğurlu inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev bunun əməkdaşlığımızın uzunmüddətli strateji inkişafı üçün geniş imkanlar yaratdığını vurğulayıb.

Söhbət zamanı Azərbaycanın bərpaolunan enerji sahəsindəki imkanları və ölkəmizin regional enerji mərkəzinə çevrilməsi perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, 1899-cu ildə əsası qoyulan və baş ofisi Kanadada yerləşən “Brookfield Asset Management” qlobal miqyasda alternativ investisiyaların idarə edilməsi sahəsində aparıcı şirkətlərdən biridir. Şirkət infrastruktur, daşınmaz əmlak, bərpaolunan enerji, özəl kapital və kredit kimi əsas istiqamətlər üzrə investisiya portfellərini idarə edir. Hazırda “Brookfield”in idarəçiliyində olan aktivlərin ümumi dəyəri 1 trilyon ABŞ dollarından çoxdur. Şirkət Nyu-York, London, Sidney, Dubay, San-Paulo, Mumbay və Şanxay da daxil olmaqla, dünyanın əsas maliyyə mərkəzlərində təmsil olunub.



# Azərbaycan Prezidenti: Səudiyyə Ərəbistanı ilə ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi gündən-günə genişlənir

**İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda**

Əlahəzrət,

Əziz Qardaşım,

Səudiyyə Ərəbistanı Krallığının milli bayramı - Krallıq Elan Edilməsi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Qardaş xalqlarımızı birləşdirən ortaq mənəvi dəyərlər, dini-mədəni köklər və möhkəm dostluq Azərbaycan-Səudiyyə Ərəbistanı əlaqələrini şərtləndirən başlıca amillərdəndir. Etibarlı tərəfdaşımız olan Səudiyyə Ərəbistanı ilə qarşılıqlı etimad və dəstəyə əsaslanan münasibətlərimizin bugünkü səviyyəsi bizi sevindirir.

Hazırda ikitərəfli gündəliyimizdə duran məsələlərin əhatə dairəsi gündən-günə genişlənir və yeni məzmunla zənginləşir. İqtisadiyyat, ticarət, sənaye, investisiya, alternativ və bərpaolunan enerji, yaşıl keçid və digər sahələrdə əməkdaşlığımızın daha da dərinləşdirilməsi üçün qarşılıqlı fəaliyyətimizi bundan sonra da davam etdirmək əzmində olduğumuzu bildirirəm.

Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında enerji sahəsində əməkdaşlıq inkişaf edərək yeni müstəviyə çıxmışdır. Qardaş ölkənizin aparıcı “ACWA Power” şirkətinin Azərbaycanda bərpaolunan enerji sahəsində həyata keçirdiyi fəaliyyətini, xüsusilə də Qafqaz regionunun ən böyük külək elektrik stansiyası olacaq Xızı-Abşeron külək elektrik stansiyasının tikintisini yüksək qiymətləndiririrəm. Bu layihə Azərbaycan-Səudiyyə Ərəbistanı iqtisadi əlaqələrinin şaxələndirilməsində əhəmiyyətli rol oynayır. Eyni zamanda OPEC+ çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığımızın mövcud səviyyəsi təqdirəlayiqdir.

Ölkələrimizin beynəlxalq təşkilatlar, xüsusilə də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığını təqdir edir, gələn il Azərbaycanda İƏT-in Zirvə Görüşünün keçiriləcəyini məmnunluqla qeyd edirəm.

Əminəm ki, zəngin mənəvi dəyərlərimizdən, xalqlarımızın qardaşlığından güc alan Azərbaycan-Səudiyyə Ərəbistanı dövlətlərarası əlaqələri və əməkdaşlığı həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə birgə səylərimizlə bundan sonra da yüksələn xətt üzrə inkişaf etməyə və möhkəmlənməyə davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

**İlham Əliyev,**

**Azərbaycan Respublikasının Prezidenti**

# Azərbaycan beynəlxalq maliyyə qurumları və nüfuzlu investisiya şirkətləri ilə əməkdaşlığın genişləndirilməsinə önəm verir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Nyu-Yorkda “Neuberger Berman” şirkətinin sədri və baş icraçı direktoru Corc Volker ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə “Neuberger Berman” şirkəti arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev ölkəmizin beynəlxalq maliyyə qurumları və nüfuzlu investisiya şirkətləri ilə əməkdaşlığın genişləndirilməsinə önəm verdiyini vurğulayaraq, bu xüsusda “Neuberger Berman” şirkəti ilə tərəfdaşlığın bundan sonra da uğurla davam edəcəyinə inamını ifadə edib.

Söhbət zamanı Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2016-cı ildən etibarən bu şirkətlə səmərəli tərəfdaşlığının ölkəmizin maliyyə sektorunun inkişafına və beynəlxalq investisiya imkanlarının genişlənməsinə töhfə verdiyi vurğulanıb.

Corc Volker rəhbərlik etdiyi şirkətin qlobal maliyyə və investisiya fəaliyyəti barədə məlumat verərək, Azərbaycanla əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, regionda baş verən iqtisadi proseslərin şirkət üçün əhəmiyyətini vurğulayıb, yeni layihələr çərçivəsində tərəfdaşlığın genişləndirilməsi üçün mövcud imkanların dəyərləndirildiyini bildirib.

Qeyd edək ki, 1939-cu ildə Nyu-Yorkda təsis olunmuş “Neuberger Berman” qlobal investisiya idarəetmə şirkətidir. Hazırda şirkət beynəlxalq institutlar, məsləhətçilər və fərdi investorlar üçün yarım trilyondan çox ABŞ dolları məbləğində aktivləri idarə edir.

# Ölkəmizdə formalaşmış əlverişli investisiya mühiti yüksək qiymətləndirilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Nyu-Yorkda “Blackstone” şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Conatan Qrey Azərbaycanda həyata keçirilən iqtisadi islahatların və inkişaf proseslərinin beynəlxalq investorlar üçün cəlbedici imkanlar yaratdığını vurğulayıb. O, rəhbərlik etdiyi şirkətin Azərbaycanla, xüsusilə də Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının genişləndirilməsində maraqlı olduğunu qeyd edib və ölkəmizdə formalaşmış əlverişli investisiya mühitini yüksək qiymətləndirib.

Prezident İlham Əliyev Azərbaycanın dünya miqyasında aparıcı maliyyə institutları ilə əməkdaşlığa böyük önəm verdiyini deyərək, ölkəmizdə sabitlik, şəffaflıq və davamlı inkişaf prinsipləri əsasında formalaşmış iqtisadi mühitin yeni tərəfdaşlıqlar üçün əlverişli zəmin yaratdığını vurğulayıb.

Qeyd edək ki, alternativ investisiyaların idarə edilməsi üzrə dünyanın ən böyük şirkətlərindən biri olan “Blackstone” 1985-ci ildə Nyu-Yorkda təsis olunub. Şirkət özəl kapital, daşınmaz əmlak, kredit, infrastruktur, data mərkəzləri, bərpaolunan enerji və hedc fondları üzrə investisiya portfellərini idarə edir. Hazırda “Blackstone”un idarəçiliyində olan aktivlərin ümumi dəyəri 1 trilyon ABŞ dollarından artıqdır. Baş ofisi Nyu-Yorkda yerləşən şirkət London, Honkonq, Dubay, Sinqapur və Tokio da daxil olmaqla dünyanın 27 şəhərində fəaliyyət göstərir.



***

**Azərbaycan Prezidenti İham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Avropa Şurasının Baş katibi, İraq Prezidenti, Yunanıstanın Baş naziri, Finlandiya Prezidenti, Keniya Prezidenti ilə görüşüb.**

**Görüşlərin icmalı qəzetimizin növbəti sayında dərc ediləcək.**

# Suverenliyin, konstitusiya quruluşunun əzmkar keşikçiləri

## İlham Əliyev: Milli prokurorluq orqanları cinayətkarlığın bütün təzahürlərinə, o cümlədən dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərə qarşı mübarizənin ön sırasında dayanırlar

Son illərdə Azərbaycanın dünyada artan nüfuzunun təsdiqi olaraq ölkəmizin mühüm beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ənənə halını alıb. Respublikamızın ən yüksək səviyyədə təşkil etdiyi belə tədbirlərdə qlobal gündəliyin aktual məsələləri, yeni çağırışlar ətrafında müzakirələr aparılır, qabaqcıl təcrübələrin təqdimatları keçirilir və adekvat koordinasiyalı fəaliyyət istiqamətləri müəyyənləşdirilir.

Bugünlərdə Bakıda Heydər Əliyev Mərkəzində növbəti belə tədbir - "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfrans keçirilib. Xatırladaq ki, bundan əvvəl cari ilin may ayında Bakıda BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - "GlobE Network" çərçivəsində altıncı plenar iclası baş tutub. Ötən ilin sentyabr ayında isə respublikamız Beynəlxalq Prokurorlar Assosiasiyasının Bakı şəhərində keçirilən 29-cu İllik Konfransına və Ümumi Yığıncağına ev sahibliyi edib. Belə tədbirlərin ardıcıl qaydada paytaxtımızda təşkil olunması həm ölkəmizə artan inamın göstəricisidir, həm də ona dəlalət edir ki, Azərbaycanın korrupsiyaya qarşı mübarizədə prinsipial yanaşma sərgiləməsi və bu məqsədlə ölkəmizdə səmərəli hüquqi və institusional çərçivə yaradılması beynəlxalq səviyyədə yüksək dəyərləndirilir və ayrı-ayrı ölkələrin müvafiq qurumları bu təcrübədən yararlanmağa çalışırlar. "Dost ölkələrin milli prokurorluq xidmətlərinin rəhbər şəxslərinin də daxil olduğu nümayəndə heyətlərinin bu tədbirə qatılması dövlətlərarası əməkdaşlığın inkişaf etdirilməsinə verdikləri önəmin təzahürüdür", - deyə Prezident İlham Əliyev beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətində bildirib.

## "Konstitusiya və Suverenlik İli" çərçivəsində beynəlxalq konfransın keçirilməsi əlamətdar hadisədir



Yalnız 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıdan böyük siyasətçi Heydər Əliyevin titanik səyləri sayəsində müstəqilliyimizi qorumaq və ölkəni davamlı sabitliyə, inkişafa istiqamətləndirmək mümkün olub. Müstəqil Azərbaycanın ilk Konstitusiyası da məhz Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunub.

Konfrans iştirakçılarına müraciətində Prezident İlham Əliyev ölkəmizin digər bir kədərli reallığını - təxminən 30 il ərzində qonşu Ermənistanın işğalçılıq siyasətinə məruz qaldığına da xüsusi diqqət çəkib. Azərbaycan xalqı və dövləti ölkə ərzisinin 20 faizinin təcavüzə məruz qalması, suverenliyimizin pozulması faktı ilə heç vaxt barışmayıb. Nəhayət, 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazanılan şanlı zəfərlər sayəsində ölkəmiz öz gücünə tarixi ədaləti və beynəlxalq hüququ təmin etməyə nail olub. " 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad edilmiş, 2023-cü ildə həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bununla da Konstitusiyamızın hüquqi qüvvəsi ölkənin bütün ərazisinə şamil edilmişdir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Ölkəmizdə 2025-ci il Prezident İlham Əliyevin imzaladığı 28 dekabr 2024-cü il tarixli Sərəncama əsasən "Konstitusiya və Suverenlik İli" elan edilib. Dövlətimizin başçısının 11 fevral 2025-ci il tarixində imzaladığı növbəti Sərəncamla respublikamızda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı təsdiqlənib. Dövlət başçısının təsdiqlədiyi Tədbirlər Planı geniş əhatə dairəsinə malikdir. Sənədə uyğun olaraq ilin əvvəlindən bəri silsilə tədbirlər həyata keçirilir. Sentyabrın 22 -də Heydər Əliyev Mərkəzində "Suverenliyin keşiyində: Konstitusiyada Prokurorluğun statusu" mövzusunda beynəlxalq konfransın da "Konstitusiya və Suverenlik İli" çərçivəsində baş tutması əlamətdar hadisədir. Prezident İlham Əliyev bəhs olunan müraciətində 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsinin heç də təsadüfi olmadığını bildirib. Dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu il biz Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyini və tarixi Zəfərimizin 5 illiyini qeyd edirik.

Müstəqil Azərbaycan ölkənin bütün ərazisində konstitusiya quruluşunun bərpa edilməsinə və dövlət suverenliyinin tam təmin olunmasına gedən yolda bir sıra çətinliklərlə üzləşib. Əvvəla, ötən əsrin doxsanıncı illərinin əvvəllərində XX yüzillikdə ikinci dəfə müstəqilliyinə qovuşan Azərbaycan ciddi sınaq qarşısında qalıb. Xüsusilə də AXC - "Müsavat" iqtidarının bir illik hakimiyyəti dönəmində həyata keçirdiyi diletant siyasətin nəticəsi olaraq ölkədə vətəndaş müharibəsi təhlükəsi yaranıb.

Bu gün Azərbaycanın suverenliyi real səciyyə daşıyır. Ölkəmiz Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə uyğun olaraq sırf milli maraqlar üzərində qurulan, müstəqillik və suverenlik prinsiplərinə əsaslanan daxili və xarici siyasət kursu həyata keçirərək ümummilli hədəflərinə doğru inamlı addımlar atır.



Son illərdə respublikamızda neqativ hallara qarşı mübarizənin səmərəliliyini artırmaq məqsədilə müxtəlif dövlət

## Milli prokurorluq orqanları ölkədə konstitusion nizamın və suverenliyin qorunmasına xidmət edirlər

proqramları, milli strategiyalar qəbul olunub və uğurla reallaşdırılıb. Dövlətin, şəxsən Prezident İlham Əliyevin göstərdiyi qətiyyətli siyasi iradəyə uyğun olaraq Azərbaycanda şəffaf münasibətlər sistemi formalaşıb. Dövlət orqanlarında göstərilən xidmətlərin elektronlaşdırılması, eləcə də hüquq-mühafizə orqanları və məhkəmələr tərəfindən aparılan icraatların paralel olaraq elektron formada təşkili, "ASAN xidmət", "DOST" modellərinin tətbiqi vətəndaşların dövlət qurumlarına əlçatanlıq səviyyəsinin artmasına, həmin qurumların fəaliyyətində şəffaflıq səviyyəsinin yüksəlməsinə səbəb olub.

Ölkənin mövcud inkişaf səviyyəsi bütün sahələrdə olduğu kimi, korrupsiyaya qarşı mübarizədə də yeni baxış tələb edir. Prezident İlham Əliyevin 4 aprel 2022-ci il tarixində imzaladığı müvafiq Sərəncamla "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiqlənib. Cari ildə isə dövlətimizin başçısı "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanunun tətbiqi haqqında Fərman imzalayıb. Eləcə də Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli Fərmanına uyğun olaraq istifadəyə verilmiş "Elektron prokurorluq" informasiya sisteminin texniki və funksional imkanları əhəmiyyətli dərəcədə təkmilləşdirilib, bir sıra digər dövlət informasiya resursları ilə inteqrasiya təmin edilib.

Aparılan islahatların və prokurorluq orqanlarının əzmkar fəaliyyətinin nəticəsidir ki, ölkəmizdə korrupsiya və digər neqativ halların əhatə dairəsi getdikcə daralır. "Milli prokurorluq orqanları cinayətkarlığın bütün təzahürlərinə, o cümlədən dövlətin konstitusiya quruluşunun əsaslarına qəsd edən cinayətlərə qarşı mübarizənin ön sırasında dayanırlar. Bununla da onlar təkcə qanunçuluğun təmin edilməsi vəzifəsini yerinə yetirmir, eyni zamanda konstitusion nizamın və suverenliyin qorunmasına xidmət edirlər. Bu baxımdan prokurorluq orqanları da dövlət suverenliyinin keşikçiləri hesab olunurlar", - deyə Prezident İlham Əliyev vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# Qlobal təhlükəsizliyə birgə cavab

## III Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi qəbul olunub

Hazırda beynəlxalq birlik çətin sınaq dönəmindən keçir. Sürətlə dəyişən dünyanın ayrı-ayrı bölgələrində amansız müharibələr alovlanır, milli dövlətlərə qarşı terror təhdidləri artır. Liderlərə sui-qəsdlər törədilir, tanınmış simalar, hətta elm və mədəniyyət xadimlərinin belə həyatlarına qəsd edilir. Bir sıra bölgələrdə insanlar, o cümlədən də uşaqlar humanitar fəlakətlə üzləşirlər. Eyni zamanda, yüksək texnoloji inkişaf şəraitində kibertəhlükəsizlik cinayətləri yeni və daha təhlükəli təhdid formasına çevrilib.

Dünyadakı belə kədərli mənzərə fonunda Azərbaycanın təhlükəsizlik məsələlərinə həssas yanaşma sərgiləməsi təqdirəlayiq haldır. Sentyabrın 21-də Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) təşkilatçılığı və 90-a yaxın ölkənin xüsusi xidmət orqanlarının rəhbərlərinin və yüksəksəviyyəli nümayəndələrinin iştirakı ilə "Terror aktları və silahlı münaqişələr zamanı humanitar böhranların və qlobal texnogen fəlakətlərin qarşısının alınmasında təhlükəsizlik orqanlarının birgə fəaliyyəti" mövzusunda III Bakı Təhlükəsizlik Forumu təşkil olunub. Forumda bütün dünyanı narahat edən məsələlər ətrafında aktual müzakirələr aparılıb. Prezident İlham Əliyev forum iştirakçılarına müraciətində bildirib ki, beynəlxalq təhlükəsizlik problemlərinin qarşısının alınmasında və həllində xüsusi xidmət orqanlarının birgə fəaliyyət göstərməsi həlledici rola malikdir.




## Dünyanı birləşdirən beynəlxalq təhlükəsizlik platforması

Bakı Təhlükəsizlik Forumu müxtəlif siyasi mövqelərə malik ölkələrin bir araya gələrək fikir ayrılıqlarını, regional və beynəlxalq münaqişələri qarşılıqlı anlayış əsasında müzakirə etmələrinə əlverişli şərait yaradan platformadır. Əslində, Azərbaycan bəhs olunan forumun yalnız ev sahibi ölkəsi deyil. Dünyanı birləşdirən qlobal təhlükəsizlik platforması məhz respublikamızın, necə deyərlər, ideya müəllifliyi ilə təşəkkül tapıb. Platformanın yaranmasını zəruri edən isə dünyada izlənilən proseslərdir. Xüsusilə də XXI əsrin başlanğıcından etibarən qlobal güc mərkəzləri arasında geosiyasi ziddiyyətlərin dərinləşməsi fonunda dünyanın müxtəlif bölgələrində hərbi toqquşmaların baş verməsi, terrorçu qruplaşmaların fəallaşması, beynəlxalq təhlükəsizlik sisteminə yönəlmiş təhdidlərin artması dövlətlərarası əməkdaşlığın möhkəmləndirilməsini şərtləndirib.

Azərbaycan burada da liderlik keyfiyyətlərini nümayiş etdirib. Məlumdur ki, Prezident İlham Əliyev hər zaman qlobal çağırışlar qarşısında beynəlxalq həmrəylik təşəbbüslərindən çıxış edir. Əslində, başqa yol da yoxdur. Azərbaycan qlobal təhdidlərə qarşı birgə fəaliyyətin təşviqi məqsədilə beynəlxalq təhlükəsizliyin qorunub saxlanılmasında misilsiz rol oynayan kəşfiyyat və təhlükəsizlik orqanlarını vahid platformada cəmləşdirməyi məqsədəuyğun hesab edib. Beləliklə, konstruktiv dialoq, qarşılıqlı anlayış və faydalı əməkdaşlıq prinsiplərinə söykənən Bakı Təhlükəsizlik Forumu təsis olunub.

I Bakı Təhlükəsizlik Forumu Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2023-cü il may ayının 3-də təşkil olunub. Dünya ölkələrinin kəşfiyyat və təhlükəsizlik orqanlarının rəhbərlərinin və yüksək səviyyəli nümayəndələrinin qatıldığı müvafiq forum çərçivəsində plenar iclasla yanaşı, ikitərəfli və çoxtərəfli görüşlər baş tutub. "Proksi şəbəkələrin destruktiv fəaliyyətinə qarşı birgə mübarizə" mövzusunda keçirilmiş iclas müasir Azərbaycanın banisi, milli təhlükəsizlik orqanlarının fəxri rəhbəri, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub. Bu, heç də təsadüfi deyil. Belə ki, Heydər Əliyev Azərbaycanın Prezidenti olduğu dövrdə Cənubi Qafqazda atəşkəsin əldə olunmasına nail olmaqla yanaşı, qatıldığı çoxsaylı beynəlxalq tədbirlərdə, eləcə də iştirak etdiyi ikitərəfli və çoxtərəfli görüşlərdə beynəlxalq təhlükəsizliyin gücləndirilməsinə böyük töhfələr verib.

Beynəlxalq səviyyədə artan maraq əsas götürülərək, 2024-cü il sentyabr ayının 15-də "Qlobal nəqliyyat şəbəkələrinin təhlükəsizliyinə yönələn müasir çağırışlar" mövzusunda II Bakı Təhlükəsizlik Forumu təşkil olunub. 2025-ci il sentyabrın 21-də 90-a yaxın ölkənin xüsusi xidmət orqanları rəhbərlərinin və yüksək səviyyəli nümayəndələrinin iştirakı ilə III Bakı Təhlükəsizlik Forumu yüksək səviyyədə baş tutub. Tədbir nümayəndə heyətlərinin rəhbərləri tərəfindən Bakı Təhlükəsizlik Forumunun Bəyannaməsi və Əsasnaməsinin qəbul edilməsi ilə başa çatıb.

## Təhlükəsizlik orqanlarının fəaliyyətinin uzlaşdırılması

Respublikamızın milli və qlobal səviyyədə təhlükəsizliyin təmin olunmasına həssas yanaşması təsadüfi deyil. Azərbaycan müharibə risklərinin, terror təhlükəsinin necə ağır nəticələrə gətirib çıxardığını öz üzərində yaşayan bir dövlətdir. Ölkəmiz ötən əsrin doxsanıncı illərinin əvvəllərində Ermənistanın havadarlarının dəstəyi ilə başladığı işğalçılıq siyasətinə görə humanitar fəlakətlə üzləşib. Eyni zamanda, müharibə yalnız döyüş meydanında aparılmırdı. Ermənistanın silahlı birləşmələri keçmiş təmas xəttindən uzaqda yerləşən şəhər və kəndləri, dinc insanları, mülki infrastrukturu öldürücü silahlarla intensiv atəşə tutmaqla çoxsaylı müharibə cinayətlərinə yol verib. Hətta İkinci Qarabağ müharibəsi bitdikdən sonra da Ermənistan ordusunun ərazilərimizdəki qalıqları silsilə terror aktları törədiblər. Təəssüf doğuran haldır ki, mina terroru bu gün də can almaqda davam edir. Forumda Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü il sentyabrın 19-20-də həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatına diqqət çəkilib. Məhz bu əməliyyatda əldə olunan uğur sayəsində ölkəmizdə separatizmin kökü kəsilib və onların terror təhlükəsinə son qoyulub.

III Bakı Təhlükəsizlik Forumunda çıxışı zamanı Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, general-polkovnik Əli Nağıyev mühüm məqamlara diqqət çəkib. Onun sözlərinə görə, humanitar böhranlar zamanı səmərəli nəticənin əldə edilməsi kompleks yanaşma və dövlət qurumları, o cümlədən təhlükəsizlik orqanları və xarici tərəfdaşlar arasında effektiv qarşılıqlı fəaliyyətin qurulması sayəsində mümkün olur. "Bu kontekstdə təbii fəlakətlərin, texnogen qəzaların və silahlı toqquşmaların əlamətləri, habelə kritik infrastrukturlara kiber və fiziki müdaxilənin edilməsi barədə niyyət və ya cəhdlərin erkən mərhələdə müəyyənləşdirilməsi olduqca vacibdir", - deyə Əli Nağıyev vurğulayıb.

Fikirlərinə davam edən Ə.Nağıyev onu da bildirib ki, təhlükəsizlik orqanlarının qarşılıqlı fəaliyyətinin düzgün təşkili yalnız fövqəladə halların nəticələrini azaltmaqla məhdudlaşmır, eləcə də humanitar tədbirlərin həyata keçirilməsinə dəstək verməklə həm vətəndaşların rifahının yaxşılaşdırılması, həm də dövlətin təhlükəsizlik və legitimlik maraqlarının təmin olunması baxımından həlledici əhəmiyyət daşıyır.

***Mübariz FEYİZLİ***

# Qlobal inteqrasiyanı gücləndirən təşəbbüslər

## Beynəlxalq İnvestisiya Forumunda imzalanan sənədlər regionda yeni əməkdaşlığa töhfə verəcək

Prezident İlham Əliyevin himayəsi altında Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu qlobal biznes və investor icması üçün maraq doğuran faydalı müzakirələr, səmərəli məsləhətləşmələr və birgə inamın nəticəsi olaraq anlaşmalar şəraitində davam etdirilib. Forum çərçivəsində keçirilən “Artım, sənayeləşmə və dayanıqlı dəyər zəncirləri üçün tərəfdaşlıqlar: Gələcəyə hazır iqtisadiyyatların qurulması” mövzusunda panel sessiyasında beynəlxalq iqtisadiyyat üçün əhəmiyyət kəsb edə biləcək mühüm mesajlar verilib. İnvestisiya və geoiqtisadiyyat üzrə tanınmış ekspert Metyu Stivensonun moderatorluğu ilə keçirilən sessiyada iqtisadiyyat nazirinin müavini Səməd Bəşirli sənayeləşmənin Azərbaycanın davamlı iqtisadi inkişafında rolu, xarici investisiyaların cəlbi üçün strateji siyasət çərçivələri, xüsusi iqtisadi zonalar və sənaye parklarının imkanları barədə məlumat verib.

Qeyd edilib ki, Azərbaycanda sənayeləşmə yeni mərhələyə daxil olmaqla ölkə iqtisadiyyatının əsas mühərriklərindən birinə çevrilib. Qeyri-neft sənayesində dinamika isə daha nəzərəçarpacaq şəkildə inkişaf edir. ÜDM-də və ixracda son illərdə qeyri-neft sənayesinin payı yüksəlir. Son 6 ildə Azərbaycanın qeyri-neft ixracı iki dəfə artıb ki, məhsulun əhəmiyyətli hissəsi yeyinti və yüngül sənaye mallarıdır. Əvvəllər qeyri-neft ixracı əsasən kənd təsərrüfatı məhsullarından ibarət idisə, hazırda emal olunmuş kənd təsərrüfatı və sənaye məhsullarının payı daha çoxdur. Bu prosesdə isə rəqabətqabiliyyətli sənaye yaratmaq üçün innovasiya və texnologiya həlledici əhəmiyyət daşıyır.

ABŞ-ın “GEO Macro Asosation” şirkətinin icraçı direktoru, Nyu-York Universitetinin professoru Noreal Rubini dünyada geosiyasi gərginliklərin artdığı və yeni geoiqtisadi transformasiyaların baş verdiyi bir dövrdə Azərbaycanın və Mərkəzi Asiya respublikalarının böyük enerji potensialı ilə qlobal iqtisadiyyatın şaxələndirilməsinə imkan verən təşəbbüslərini yüksək dəyərləndirib. Qeyd edib ki, bu cür transkontinental layihələr iqtisadi həmrəyliyi möhkəmləndirməklə yanaşı, sabitliyin təmin olunmasında zəmanət rolunda çıxış edir. Azərbaycan ilə Ermənistan arasında sülh prosesini regionda sabitliyi təmin edən amil kimi qiymətləndirən cənab Rubini sabitliyin dayanıqlı iqtisadi inkişafın əsas şərtlərindən faktor olduğunu vurğulayıb. Professorun fikrincə, regional əməkdaşlığın hüdudlarının genişlənməsi böyük bir coğrafiyada - Mərkəzi Asiya-Azərbaycan-Qafqaz və Avropa xətti üzrə böyük bir istehsal-emal-ixrac zəncirlərini quracaq, bölgənin potensialının dünya bazarlarına çıxışına və ticarətin artmasına yol açacaq.

### Şimal-Cənub və Şərq-Qərb dəhlizləri regional inkişafı artırır

Ələt Azad İqtisadi Zonası İdarə Heyətinin sədri Valeh Ələsgərov, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev, Macarıstan İxrac Təşviqi Agentliyinin baş direktoru və xarici iqtisadi əlaqələr üzrə dövlət katibinin müavini Katalin Bihari, Dünya İnvestisiya Təşviqi Agentlikləri Assosiasiyasının icraçı direktoru İsmayıl Erşahin, Avropa Yenidənqurma və İnkişaf Bankının Qafqaz üzrə direktoru Alkis Vryenios Drakinos və digər nüfuzlu şirkət və iqtisadi institutların nümayəndələri müasir sənaye quruculuğunun trendləri, nəqliyyat bağlantıları barədə fikirlərini bölüşüblər. İştirakçılar, həmçinin, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin regional inkişafa, eləcə də sənaye artımına verdiyi əvəzsiz töhfələrə də diqqət çəkiblər.




### Asiya İnvestisiya Bankı “Transxəzər Yaşıl Enerji Dəhlizi”ni maliyyələşdirəcək

Tədbirdə əsas müzakirə istiqamətlərindən biri də bərpaolunan enerji sahəsində regional əməkdaşlıq məsələləri, Azərbaycanın iradəsi ilə həyata keçirilən “yaşıl enerji” siyasətinin mühüm nəticəsi kimi Xəzər-Qara dəniz-Avropa yaşıl enerji Dəhlizinin əhəmiyyəti ilə bağlı olub. Energetika naziri Pərviz Şahbazov bildirib ki, Azərbaycan indiyədək təxminən 144 milyard dollar xarici sərmayə cəlb edərək regionda Xəzər dənizini beynəlxalq investorlar üçün açıq elan edən, Xəzərdən Aralıq dənizinə, Qara dənizə və Adriatik dənizə enerji dəhlizləri yaradan ilk ölkə kimi bu prosesə mühüm töhfə verib. Hazırda Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq “Transxəzər Yaşıl Enerji Dəhlizi” layihəsi üzrə birgə fəaliyyətlə yeni dinamika qazandırmaqdadır. Bu istiqamətdə ötən il COP29 zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri tərəfindən imzalanan üç ölkə arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində Strateji Tərəfdaşlıq haqqında Hökumətlərarası Sazişin və Səudiyyə Ərəbistanının “Mərkəzi Asiya - Azərbaycan Yaşıl Enerji Dəhlizi”ndə investor kimi iştirakını təmin edən icra proqramından bəhs edilib. Layihə üzrə qərargahı Bakıda olmaqla “Yaşıl Dəhliz Alyansı” adlı birgə müəssisə təsis edildiyi və gələn ay layihənin texniki-iqtisadi əsaslandırmasını həyata keçirəcək məsləhətçi şirkətin seçilməsi üçün tender keçiriləcəyi diqqətə çatdırılıb. Qeyd olunub ki, ilin sonunadək Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankının maliyyə dəstəyi ilə TİƏ-nin hazırlanmasına başlanması planlaşdırılır.




### Avropa Bankı yeni rəqəmsal texnologiyalar sahəsində ölkəmizə dəstək verəcək

Azərbaycan ilə Avropa arasında enerji sahəsində etibarlı əməkdaşlıq əlaqələri də forumda təqdir olunub. Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Qafqaz region üzrə direktoru Alkis Vryenios Drakinos Azərbaycan hökumətinin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atdığı addımları alqışlayaraq bankın bu prosesə dəstəyindən bəhs edib. Bildirib ki, Avropa Bankı Azərbaycana iqtisadiyyatını difersifikasiya ilə bağlı yeni prioritetləri həyata keçirməkdə yardım göstərməyə hazırdır. Anlaşmaya əsasən, AYİB Azərbaycan hökuməti ilə insan resurslarından istifadə, iqtisadiyyatın rəqəmsallaşdırılması, süni intellekt, yeni texnologiyalar sahəsində əməkdaşlıq etmək niyyətindədir.

### İnvestisiya dəyəri 5,5 milyard dollar olan müqavilələr imzalanıb

Forum çərçivəsində İqtisadiyyat Nazirliyi ilə Beynəlxalq Maliyyə Korporasiyası (BMK) arasında Dövlət-Özəl Tərəfdaşlığı (DÖT) sahəsində potensialın artırılmasına dair əməkdaşlıq sazişi imzalanıb. Azərbaycan hökuməti və Beynəlxalq Maliyyə Korporasiyası arasında imzalanan sənədə əsasən, dövlət-özəl tərəfdaşlığı sahəsində birgə layihələrin icrası nəzərdə tutulur. Sənəddə DÖT layihələrinin icrasını asanlaşdırmaq üçün strategiyanın hazırlanması və əməkdaşların potensialının artırılması istiqamətində İqtisadiyyat Nazirliyinə dəstəyin göstərilməsi, DÖT layihələrinin icrası strategiyasının hazırlanması, investisiya prosesinin nəzərdən keçirilməsi mexanizminin təkmilləşdirilməsi, eləcə də DÖT layihələrinin seçilməsi və həyata keçirilməsi üçün sahəvi təlimatların hazırlanması kimi əməkdaşlıq istiqamətləri öz əksini tapıb.

Həmçinin, İqtisadi Zonaların İnkişafı Agentliyi ilə “China Datang Overseas Investment Co.” arasında Abşeron yarımadasında Yaşıl Enerji Sənaye Parkının yaradılması üzrə anlaşma memorandumu imzalanıb. Bu sənəd bərpaolunan enerji istehsalı, təmiz texnologiyalar və sənaye infrastrukturunun inkişafı sahəsində uzunmüddətli tərəfdaşlığı nəzərdə tutur.

Dünya İqtisadi Forumu ilə Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi-AZPROMO arasında Assosiativ Mərkəz Tərəfdaşlığı (Üzvlük) Müqaviləsi imzalanıb. Eləcə də Azərbaycanın Su və Meliorasiya Elmi-Tədqiqat İnstitutu ilə “ACWA Power” şirkəti arasında birgə bilik və təcrübə mübadiləsinə dair anlaşma memorandumu imzalanıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, forumun ilk günü ümumilikdə dəyəri 5,5 milyard dollara bərabər olan müqavilələr imzalanıb ki, həmin sənədlər iqtisadi və investisiya layihələrini əhatə edir. Nazir qeyd edib ki, forumun ikinci günü dünyanın digər nüfuzlu şirkət və təşkilatları ilə yeni sazişlər də imzalanacaq. Yeni sənədlər regionda yeni əməkdaşlıqlar üçün dərin hüquqi baza olmaqla qlobal inteqrasiya və rifah quruculuğunu da inkişaf etdirəcək.

### Çin iş adamları Azərbaycana sərmayə yatırmaqda qərarlıdır

Çinin Xarici İnvestisiya Assosiasiyasının rəhbəri Hi Çenvey Azərbaycanda qeyri-neft sektorunun əksər bölmələrinin ölkəsinin iş adamları üçün maraq kəsb etdiyini, forumun panel iclaslarında azərbaycanlı biznes nümayənələri ilə müştərək layihələrə başlamaq haqqında faydalı qərarlar qəbul edildiyini xatırladıb. Çinin 12 əyalətindən 20 iş adamı ilə foruma qatıldığını bildirən Hi Çenvey Azərbaycanın da Çinə investisiya qarşılıqlı yatırımlarda son illərdə fəallıq nümayiş etdirdiyini, sərmayələrin hər iki ölkənin istehsal proseslərinə töhfə verdiyini vurğulayıb. Azərbaycanın nəqliyyat, tranzit və logistika, texnologiyalar bölmələrində Çinlə yaxın tərəfdaşlıq etməsi, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) çərçivəsində regionda irihəcmli sərmayə mühiti yaratması çinli iş adamlarının bu sahəyə marağını daha çox artırır. Eyni zamanda, Çin Azərbaycanda “yaşıl eneji” istehsalına investisiya yatırmaqda qərarlıdır, eləcə də azad ərazilərdə “ağıllı evlər”in tikilməsi, şəhər nəqliyyatında “ağıllı avtomobil”lərin istehsalı sahələrinə investisiya yatırılması müzakirə olunur.

Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkəti də Azərbaycanda bərpaolunan enerji layihələrinin inkişafına 1,2 milyard dollardan çox sərmayə yatırmaq niyyətindədir. Şirkətin MDB regionu üzrə inkişaf və investisiya şöbəsinin rəhbəri Məryəm əl-Mazrui bildirib ki, Biləsuvar və Neftçalada tikintisi başlayan 2 Günəş stansiyası, həmçinin quruda 240 MVt gücündə külək parkının inşası ilkin sərmayələr üçün zəmindir, yeni investisiyaların dəyəri isə daha böyük olacaq.

**E.CƏFƏRLİ**

---

# Azərbaycan və Çin yeni imkanları araşdırır

## Ölkələr arasında kənd təsərrüfatı üzrə birgə işçi qrup yaradılacaq

Çin və Azərbaycan aqrar sahədə ənənəvi istehsal və emal üsullarından müasir aqrar-sənaye modelinə keçidi sürətləndirmək, “ağıllı kənd təsərrüfatı” texnologiyalarının tətbiqini genişləndirmək, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiqini təmin etmək, ekoloji təmiz və halal qida prinsipi ilə fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri və aqroparklar yaratmaq üçün birgə təşəbbüsləri dəstəkləyir. Tərəflər bu layihələrin icrasında dövlət şirkətləri ilə yanaşı, özəl biznes icmasının fəaliyyətini ələqələndirməyi vacib hesab edir. Çin Xalq Respublikasının səfiri Lu Mey ilə Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov arasında keçirilən görüşdə aqrar sektorda əməkdaşlığın yeni istiqamətləri və dəstəklərin verilməsi barədə ətraflı müzakirələr aparılıb.

M.Məmmədov bildirib ki, Azərbaycanla Çin arasında bütün sahələrdə əməkdaşlıq dinamik inkişaf edir. Azərbaycan Çin ilə iqtisadi və ticarət əlaqələrinin gücləndirilməsinə yönəlmiş bütün təşəbbüsləri tam dəstəkləyir. Lu Mey isə Çinin Azərbaycanla dost ölkə olduğunu və bütün sahələrdə tərəfdaşlığın inkişafına maraq göstərdiyini vurğulayıb. O, kənd təsərrüfatı, innovasiya və texnologiyalar sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın mövcudluğunu qeyd edib. Bildirilib ki, əməkdaşlığın yeni gündəliyi olduqca genişdir və tərəflər yeni layihələr üzrə birgə hüquq-müqavilə bazasının gücləndirilməsi, kənd təsərrüfatı üzrə birgə işçi qrupun yaradılması, kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, ən müasir texnologiyaların transferi sahələrində imkanları artırmaq niyyətindədir.

### Aqrar sektorda Çinin “ağıllı texnologiyaları” tətbiq olunur

Çinin “yaşıl inkişaf” və qabaqcıl aqrar-sənaye texnologiyası sahəsində əldə etdiyi zəngin təcrübə bir çox ölkələr, o cümlədən strateji müttəfiqlərdən biri - Azərbaycan üçün də xüsusi maraq kəsb edir. Çin hazırda alternativ enerji texnologiyaları üzrə dünya liderlərindən biridir və dünyanın 80-dən çox ölkəsində müasir istehsal zonalarında bu innovasiyalara geniş yer verilir. Bu baxımdan Azərbaycanın aqrar sektoru innovasiyayönümlü modellərin tətbiqində Çin təcrübəsindən faydalana bilər.

Çinin aqrar-sənaye və şirkətləri azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələrdə də Azərbaycanın əsas tərəfdaşlarından birinə çevriləcək. Bu ərazilər zəngin aqrar potensiala malikdir və hazırda müasir modellər təbiq edilir. Kənd təsərrüfatı istehsalında “ağıllı enerji” texnologiyalarının tətbiqi və idarə olunması sahəsində xarici şirkətlərlə danışıqlar aparan Azərbaycan hökuməti Çin investorlarına da mühüm önəm verir.

Azərbaycanın istehsal etdiyi kənd təsərrüfatı məhsullarının Çin bazarlarına ixracının genişləndirilməsi müasir ixrac-tranzit siyasətində mühüm yer tutur.



### İxrac missiyaları aqrar sahədə əməkdaşlığı artırır

Artıq bir neçə ildir ki, iqtisadi ənənəyə çevrilmiş Çinin Urumçi şəhərində təşkil olunan Azərbaycanın ixrac missiyaları da iki ölkənin biznes icması arasında təmasların genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İxrac missiyaları yeni bazarlara çıxış imkanlarını aşkar etmək, mövcud bazarlarda yerli məhsulların mövqeyini möhkəmlətmək və bu bazarlara yeni məhsullar təqdim etmək məqsədi ilə təşkil olunan dəstək tədbiridir. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Azərbaycanın Çindəki Ticarət nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən bu cür tədbirlər Azərbaycan kənd təsərrüfatı məhsullarının ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsində əsas vasitələrdən biridir.

### “Azərbaycan Ticarət Ev”ləri ikitərəfli əlaqələrə dəstək verir

Azərbaycan-Çin iqtisadi əməkdaşlığının mühüm platforması kimi Çində fəaliyyət göstərən Azərbaycan Ticarət Evlərinin rolunu da xüsusi qeyd etmək olar. İndiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın “Ticarət evləri” açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib. Ticarət evləri ölkəmizdə istehsal edilən qida və içki sənayesinə aid 50-yə yaxın məhsulun nümayiş olunması, milli ixrac qabiliyyətinin imkanlarının təqdim olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Burada diqqəti cəlb edən “Made in Azerbaijan” rəflərinin təşkili yerli qeyri-neft məhsullarının vahid brend ilə dünyada tanıdılması və təşviq edilməsi baxımından ən təsirli ixrac ideyası sayıla bilər.

Ticarət evləri Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşımır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında kənd təssərrüfatı sahəsində faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Həmçinin, Ticarət evlərinin sayının artması Azərbaycan və Çin arasında qarşılıqlı ticarət mübadiləsinin də artmasını təşviq edəcək, xüsusilə də ölkəmizdən Çinə ixracın həcmini yüksəldəcək. Qeyd edək ki, hazırda iki ölkə arasında qarşılıqlı mal dövriyyəsinin həcmi təxminən 3,1 milyard dollar təşkil edir, Azərbaycanın bu ölkəyə ixracının həcmi 100 milyona dollara bərabərdir. İxracda əsas məhsullar qida, təbii mineral sular, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə məhsullarıdır.

### Çin sərgilərində Azərbaycan məhsulları böyük maraq doğurur

Azərbaycan sahibkarları davamlı olaraq Çində təşkil olunan ənənəvi nəhəng sərgilərdə də fəal iştirak edirlər. Son 5 ildə “Made in Azerbaijan” vahid ölkə stendi ilə nümayiş olunan malların həm coğrafiyası artır, həm də Ticarət evlərində təmsi olunan sahibkarların sırası genişlənir.

Yeri gəlmişkən, ötən həftə Çinin Fucien əyalətinin Siamen şəhərində keçiriləm 25-ci Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisində (“CIFIT 2025”) Azərbaycanın kənd təsərrüfatı məhsulları nümayiş etdirilib. “Invest in Azerbaijan” vahid ölkə stendində ölkəmizin yeyinti məhsulları çinli iş adamlarının xüsusi marağına səbəb olub. Sərgi Azərbaycanın investisiya və ticarət imkanlarını tanıtmaq, Çin bazarında mövqelərimizi gücləndirmək və yeni tərəfdaşlıqlar qurmaq üçün yeni fürsətlər yaradır. Eyni zamanda, Azərbaycanın aqrar sektoruna Çin iş adamlarının cəlbi və birgə müəssisələrin yaradılması və ixrac imkanları baxımından mühüm əhəmiyyət kəsb edir.

Ümumilikdə, Azərbaycanın və Çinin aqrar sahədə əməkdaşlığı və niyyətləri ikitərəfli iqtisadi və ticari həcmlərin artmasına, müasir aqrar alətlərin tətbiqi sayəsində ekoloji təmiz məhsul istehsalına imkan verməklə yanaşı, ərzaq təhlükəsizliyinin möhkəmlənməsində mühüm töhfəverici rol oynayacaq.

**E. CƏFƏRLİ**

# İnvestisiya Forumunda nəhəng layihə

## “ACWA Power” şirkəti ilə imzalanmış sazişə əsasən, ərəb şirkəti Xəzər dənizinin suyunu duzsuzlaşdıracaq

Bakıda keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun plenar sessiyası çərçivəsində Baş nazirin müavini Samir Şərifov, iqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə ölkəmizdə dəniz suyunun duzsuzlaşdırılması layihəsi ilə bağlı bir sıra sənədlərin imzalanma mərasimi keçirilib. Xəzər dənizi suyunun duzsuzlaşdırılması zavodunun layihələndirilməsi, tikintisi, maliyyələşdirilməsi, istismarına dair Dövlət-Özəl Tərəfdaşlığı Müqaviləsi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti arasında imzalanıb.

“ACWA Power” şirkəti ilə imzalanmış digər sənədlər təmizlənmiş suyun alqı-satqısı üzrə Su Satınalma Müqaviləsi, Torpaq Sahəsinin İcarəsinə dair Müqavilə və Dövlət Zəmanəti Müqaviləsidir.

Dəniz suyunun duzsuzlaşdırılması layihəsi İqtisadiyyat Nazirliyi tərəfindən dövlət-özəl tərəfdaşlığı çərçivəsində ölkəmizdə icrası nəzərdə tutulan ilk pilot layihədir. Layihə çərçivəsində Sumqayıt Sənaye Parkında tikiləcək zavodda dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı həyata keçiriləcək. Gündəlik 300 min kubmetr məhsuldarlığa malik layihənin dəyəri 407 milyon dollar təşkil edir. Müqaviləyə əsasən zavodun layihələndirilməsi, tikintisi və 25 il müddətində istismarı “ACWA Power” tərəfindən həyata keçiriləcək.

### “Əks Osmos” texnologiyası

Layihə Abşeron yarımadasının içməli suya artan tələbatını təmin etmək, şirin su mənbələrini şaxələndirmək məqsədi daşıyır. Əsas hədəf dövlətin içməli su təchizatında yükünü azaltmaq, bu sahədə beynəlxalq təcrübəni və texnologiya transferini stimullaşdırmaq, iqtisadiyyata xarici sərmayələri cəlb etməkdir.

Su ehtiyatlarından istifadənin yaxşılaşdırılması, içməli su təchizatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb olunması sosial-iqtisadi inkişafda önəm kəsb edir. Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı layihələri dünyanın bir sıra ölkələrində icra edilir. Qlobal istiləşmə, su ehtiyatlarının səmərəsiz istifadəsi və dünyada artan quraqlıq içməli suyun istehsalı üçün duzsuzlaşdırma zavodlarının fəal istifadəsinə təkan verib.

Dünya ölkələrində dəniz suyunun duzsuzlaşdırılması layihələrində “Əks Osmos” (Reverse Osmosis) texnologiyası tətbiq edilir. Bir sıra ölkələrdə bu layihələr dövlət-özəl tərəfdaşlığı modeli ilə həyata keçirilir. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İsrail kimi Yaxın Şərq ölkələrində bu layihələr geniş yayılmışdır. Həmçinin ABŞ, Avstraliya və bir sıra başqa ölkələrdə də duzsuzlaşdırma zavodları fəaliyyət göstərir. Bu baxımdan Azərbaycanda da su ehtiyatlarından istifadənin yaxşılaşdırılması, su təhlükəsizliyinin təmini, əhalinin içməli su təchizatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlbi aktuallaşıb.




### Azərbaycan su ehtiyatlarının azlığından əziyyət çəksə də...

Azərbaycan su ehtiyatlarının həcminə görə, region ölkələri arasında ən az resurslara malik olduğundan qarşıdakı illərdə dayanıqlı su fondunun yaradılması ciddi məsələ kimi qarşıda durur. 2024-cü il statistikasına görə, Azərbaycanda yerüstü su ehtiyatları 17 milyard kubmetr təşkil edib. Bu, respublikamızın ən çox sululuq dövrü hesab olunan 1960-1990-cı illərdəki göstəriciyə nisbətən, 45 faiz azdır. Belə ki, həmin dövrdə ehtiyatlar 30 milyard kubmetr olub. Bu vəziyyət su ehtiyatlarının hesablanması və yeni mənbələrin dövriyyəyə cəlb edilməsini labüd edir. Alternativ su mənbələrindən biri isə dəniz suyunun duzsuzlaşdırılmasıdır.

Məhz bu çağırışlar nəzərə alınmaqla, Prezident İlham Əliyevin 2023-cü ildə imzaladığı müvafiq sərəncama əsasən, dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi hökumət qarşısında tələb kimi qoyulub.

Dövlət başçısının tapşırığının icrası istiqamətində ötən il müvafiq addımlar atılıb, pilot layihənin həyata keçirilməsi üçün İqtisadiyyat Nazirliyində aidiyyəti qurumların nümayəndələrindən ibarət İşçi Qrup yaradılıb. Eyni zamanda, Dövlət İnvestisiya Proqramına əsasən, bu sahəyə xarici investorların cəlb olunması nəzərdə tutulub. 2024-cü ildə elan edilmiş investisiya müsabiqəsinə bir neçə tanınmış xarici investor, o cümlədən dəniz suyunun emalında dünya nəhəngləri olan İsrailin “IDE Water Assets Ltd”, Birləşmiş Ərəb Əmirliklərinin “Metito Utilities Limited” və Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətləri də qatılıb. Qiymətləndirmələrin nəticələrinə əsasən, “ACWA Power” müsabiqənin qalibi seçilib.

Beləliklə, Birinci İnvestisiya Forumunda Səudiyyə Ərəbistanı şirkəti ilə yekun sazişin imzalanması ilə layihənin icrası üçün hüquqi-iqtisadi baza yaranmış oldu.

### Gündəlik istehsal gücü 300 min kubmetr

İqtisadiyyat Nazirliyinin məlumatına görə, layihə çərçivəsində ərəb investoru tərəfindən qoyulacaq sərmayələr hesabına Sumqayıt Kimya Sənaye Parkında gündəlik istehsal gücü 300 min kubmetr su olan zavodun tikintisi planlaşdırılır. Müəssisənin 2,5 il ərzində tikilməsi nəzərdə tutulur. Müqaviləyə əsasən layihənin müddəti 27,5 ildir. Belə ki, konsorsium layihəni bu müddətdə idarə etdikdən sonra müəssisə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin idarəetməsinə keçəcək. Layihə Bakı şəhəri və Abşeron yarımadasının içməli suya artan tələbatını təmin etmək, şirin su mənbələrini şaxələndirmək, içməli su təchizatı sahəsində beynəlxalq təcrübəni və texnologiya transferini stimullaşdırmaq və xarici sərmayə cəlbi baxımından mühüm töhfə verəcək.

Qeyd edək ki, Səudiyyə Ərəbistanının 2004-cü ildə təsis edilmiş “ACWA Power” şirkəti, suyun duzsuzlaşdırılması və yaşıl hidrogen sahələrində qabaqcıl özəl şirkətlərdən biridir. Şirkət 13 ölkədə - Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiyada fəaliyyət göstərir və 4 mindən çox işçi heyətinə sahibdir. “ACWA Power”ın portfeli istismarda olan, inkişaf etdirilən və tikilməkdə olan 94 layihədən ibarətdir. Bu layihələrin sərmayə dəyəri 98 milyard dollar təşkil edir və şirkət 69 GVt enerji istehsalı və gündəlik 8 milyon kubmetr suyun duzsuzlaşdırılması gücünə malikdir.

**E.CƏFƏRLİ**

# Regionun yeni xəritəsi...




## Vaşinqton sazişi Orta Dəhlizi stimullaşdırır

Yeni dövrün ən mühüm çağırışı olan “əlverişli ticari yol” tematikası Şərq ilə Qərbin qovşağında yerləşən Azərbaycanın geocoğrafi imkanlarını və əhəmiyyətini yüksək səviyyədə aktuallaşdırır. Xüsusilə, Şərq-Qərb, Şimal-Cənub seqmentləri üzrə yüksək rentabelli infrastruktura malik olması Azərbaycanın daşımaçılıq potensialını daha parlaq şəkildə ortaya qoyur. İllərdir Orta Dəhliz üzərindən yürüdülən ticari əlaqələr müasir siyasi reallıqlarla yeni ştrixlər qazanıb. Xüsusilə, bu ilin avqustunda Vaşinqtonda baş tutan görüş, imzalanan Birgə Bəyannamə və sülh sazişinin paraflanması bölgənin yüksək potensialının gələcək perspektivini müəyyənləşdirir. Ən əsası isə, Qafqaz regionunda uzun illərdir davam edən gərginliklər və ziddiyyətlər fonunda Vaşinqtonda imzalanmış saziş yalnız iki ölkə üçün deyil, bütövlükdə Avrasiya məkanı üçün strateji əhəmiyyət kəsb edən tarixi hadisə kimi dəyərləndirilir. Bu sənəd ilk növbədə sülh və sabitlik ümidlərini gücləndirərək, regionun iqtisadi və nəqliyyat xəritəsini yenidən formalaşdırmağa imkan yaradır. Ən diqqətçəkən məqam isə imzalanmış sazişin Orta Dəhliz adlanan beynəlxalq nəqliyyat marşrutunun artan əhəmiyyətinə verdiyi dəstəkdir. Çin-Avropa ticarətini birləşdirən, Xəzər dənizi üzərindən keçən, Azərbaycan vasitəsilə Qərbə uzanan bu strateji yol indiyədək daha çox geosiyasi risklərdən, regional münaqişələrin təsirindən əziyyət çəkirdisə, Vaşinqton sazişi fonunda regionda sabitliyin təmin olunması Orta Dəhlizin rəqabət qabiliyyətini yüksəldir, alternativ marşrutlara nisbətən daha etibarlı və dayanıqlı seçimə çevirir. Bu isə həm Azərbaycanı əsas tranzit mərkəzi kimi möhkəmləndirir, həm də Avropa və Asiya ölkələrinin maraqlarını daha sıx şəkildə qovuşdurur.

### Azərbaycan regionun inkişafına töhfə verir...

Bu fakt qonşu dövlətlər tərəfindən də təsdiqlənir. Belə ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Nyu-Yorkda “Cerberus Capital Management”in baş direktoru Frank Bruno ilə görüşündə deyib ki, Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sazişin imzalanması Orta Dəhlizin artan əhəmiyyətinə müsbət təsir göstərib. Prezident Tokayev vurğulayıb ki, son beş ildə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TCITR) kimi tanınan Orta Dəhliz üzrə yükdaşımalar 6 dəfə artıb.

Vurğulayaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya qədər uzanır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur. Şərqi Avropada baş verən hərbi kataklizmlərin Avrasiya məkanından keçən bir sıra marşrutlar üçün ciddi təhdidlər yaratdığını nəzərə alsaq, Orta Dəhlizin ticari əhəmiyyəti son illərdə daha da yüksəlib. Bu, həm də marşrut üçün yeni fürsətlər yaradıb. Ayrı-ayrı ölkələr və daşıma şirkətləri siyasi sabitlik, təhlükəsizlik, marşrut qısalığı kimi mühüm amilləri nəzərə alaraq yüklərin məhz bu marşrutla daşınmasına üstünlük verirlər. Marşrutun effektivliyində isə bir sıra amillər çıxış edir. Belə ki, Azərbaycanın Mərkəzi Asiya - Avropa xətti üzrə iqtisadi inteqrasiya oynadığı rolun daha da şaxələndirilməsi, eyni zamanda çoxtərəfli mahiyyət daşıması bu məsələdə əsas rollardan birini oynayır. Eyni zamanda, Azərbaycanın timsalında Cənubi Qafqaz ilə Mərkəzi Asiyanın vahid geosiyasi anlam qazanması layihənin əsas uğurlarından biridir.

### Orta Dəhlizin təhlükəsizlik zəmanəti

Qeyd edildiyi kimi, Vaşinqtonda imzalanan saziş regionda nəqliyyat və logistika layihələrinin qarşısındakı ən böyük manea olan təhlükəsizlik risklərini azaldır. Orta Dəhliz üçün sabitlik faktoru ən əsas üstünlüklərdən biridir, çünki beynəlxalq daşıyıcılar və sərmayəçilər etibarlı tranzit mühitinə üstünlük verirlər.

Xüsusilə, hazırkı gərginliklər fonunda, Avrasiya məkanından keçən bir sıra marşrutlar üçün ciddi təhdidlərin yaranması fonunda Orta Dəhlizin cəlbediciliyi artır və bu marşrut üçün yeni fürsətlər yaranır. Marşrutun effektivliyinə gəldikdə isə, burada Azərbaycanın Mərkəzi Asiya ilə qarşılıqlı inteqrasiya prosesinə kompleks şəkildə yanaşma sərgiləməsi, əlaqələrin bu və ya digər şəkildə fərqli müstəvilərdə inkişaf etməsi, çoxtərəfli, şaxələndirilmiş və genişləndirilmiş şəkildə sürət qazanması, Cənubi Qafqaz Mərkəzi Asiya ilə vahid geosiyasi məkan anlamı qazanması, Türk Dövlətləri Təşkilatı platformasının Orta Dəhlizin inkişafındakı rolunu da unutmaq olmaz - bunlar Dəhlizin əsas keçid üzrə ən vacib ştrixləridir.

### Zəngəzur amili - Orta Dəhliz üçün yeni nəfəs...

Sabitlik mühiti yaradıldıqca Orta Dəhliz boyunca infrastrukturun genişləndirilməsi, yeni dəmir yolu xətləri, limanların modernləşdirilməsi və rəqəmsal logistika həllərinin tətbiqi üçün sərmayə cəlbi asanlaşacaq. Ən əsası isə dəhlizin aparıcı seqmenti kimi Zəngəzur dəhlizi (TRİPP) üzərində razılığın əldə olunması mühüm perspektivdən xəbər verir. Zəngəzur dəhlizi Avropa ilə Asiya arasında yeni birləşdirici funksionallıq daşıyan marşruta çevrilmə potensialına malikdir. Dəhlizinin reallaşması isə dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yollarının Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya edilməsinə yol açacaq ki, bu da həm Mərkəzi Asiya, həm Avropa, həm də keçid üzərində olan dövlətlər üçün çox böyük əhəmiyyət daşıyır. Bundan başqa, Azərbaycanın Xəzərdə qurduğu ən böyük limanın, həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa olunan üç beynəlxalq səviyyəli aeroportun yaratdığı imkanları da nəzərə alsaq, belə bir qənaət ifadə edə bilərik: Zəngəzur dəhlizi beynəlxalq səviyyədə daşımaların artması üçün bariz stimuldur.

Beləliklə, Vaşinqtonda paraflanan Azərbaycan - Ermənistan sazişi region üçün tarixi dönüş nöqtəsi olmaqla yanaşı, qlobal iqtisadi və geosiyasi balanslarda da mühüm hadisədir. Bu addım Orta Dəhlizi daha etibarlı, rəqabətqabiliyyətli və strateji marşrut kimi önə çıxarır. Beləliklə, saziş yalnız siyasi sabitliyin təməlini qoymur, həm də Azərbaycanı Avrasiya nəqliyyat şəbəkəsinin ayrılmaz mərkəzi kimi möhkəmləndirir.

**P. SADAYOĞLU**

# Yaxın Şərqin taleyi: yeni səhifə, yoxsa köhnə dramın davamı...

## Tanınmanın kəsişdiyi və kəsdiyi yollar: Regionu nə gözləyir?

Son onilliklərdə İsrail-Fələstin münaqişəsi Yaxın və Orta Şərqin əsas geosiyasi düyünlərindən biri olaraq qalmaqdadır. Müxtəlif vasitəçilik təşəbbüslərinə, atəşkəs razılaşmalarına və beynəlxalq diplomatik səylərə baxmayaraq, bölgədə davamlı sülhə nail olunmayıb. Bu fonda son zamanlarda Qərb dövlətlərinin Fələstini dövlət kimi tanımağa başlaması yeni mərhələnin işarəsi hesab olunur. Əgər əvvəllər Fələstinin legitimliyi əsasən ərəb və müsəlman ölkələrinin dəstəyi ilə ifadə olunurdusa, indi Avropa və digər Qərb dövlətlərinin bu istiqamətdə addım atması prosesin beynəlxalq hüquq müstəvisinə çıxarılmasını daha da gücləndirir. Məsələ artıq yalnız regional qarşıdurma deyil, qlobal təhlükəsizlik və beynəlxalq ədalət müstəvisində müzakirə olunur.

Bu tanınma aktı, bir tərəfdən, Fələstinə diplomatik status, siyasi legitimlik və beynəlxalq hüquq çərçivəsində hərəkət imkanları qazandırır, digər tərəfdən isə İsrail ilə Qərb arasında münasibətlərdə yeni balans axtarışını gündəmə gətirir. İndi əsas sual budur: Qərbin bu qərarı Yaxın və Orta Şərqdə real sülh və sabitliyə yol açacaqmı, yoxsa regionu daha da kəskin rəqabət və qarşıdurmaya sürükləyəcək?

### Avropadan dəstək: HƏMAS olmayacağı təqdirdə...

Qeyd edək ki, gözlənildiyi kimi, BMT Baş Assambleyasının 80-ci sessiyası maraqlı startla yadda qaldı - Böyük Britaniya, Kanada, Avstraliya və Portuqaliyanın ardından Fransa, Belçika, Monako, Malta və Lüksemburq da Fələstin dövlətinin müstəqilliyini tanıyıb. Ölkələr bu qərarı BMT Baş Assambleyasının sammitində elan ediblər. Belçikanın Baş naziri Bart De Vever bəyan edib ki, ölkəsi Fələstin dövlətini tanımaq üçün digər dövlətlərə qoşulur. Eyni zamanda, Belçika lideri əlavə edib ki, Fələstin dövlətinin hüquqi tanınması yalnız bütün girovlar azad edildikdən və HƏMAS və digər terror təşkilatlarının Fələstinin idarəçiliyindən kənarlaşdırıldıqdan sonra" baş verəcək.

Monako Knyazlığı da Fələstin dövlətini tanımaq üçün 145-dən çox ölkəyə qoşulub - Baş Assambleyada çıxış edən Şahzadə II Albert qeyd edib ki, ölkəsi əvvəldən İsrailin təhlükəsiz və tanınmış sərhədlər daxilində yaşamaq və bu sərhədlər daxilində təhlükəsizlikdən istifadə etmək hüququnu, həmçinin Fələstin xalqının suveren, yaşaya bilən və demokratik dövlət hüququnu müdafiə edib.

Maltanın Baş naziri Robert Abela bildirib ki, iki dövlətli həll HƏMAS üçün mümkün olan ən pis nəticə olacaq və HƏMAS gələcək Fələstin hökumətində heç bir rol oynamamalıdır.

Lüksemburqun Baş naziri Luc Frieden ölkəsinin Fələstin dövlətini rəsmən tanıdığını və bu qərarın ümid öhdəliyinin başlanğıcı olduğunu bildirib.

Fransa prezidenti Emmanuel Makron da ölkəsinin Fələstini dövlət kimi tanıdığını açıqlayıb. "Bu gün Fransa Fələstin dövlətini tanıyır", - deyə Makron bəyan edib. Onun sözlərinə görə, bu, İsrail və Fələstin xalqları arasında sülh naminə edilir. Makron HƏMAS-ın əlindəki girovların azad edilməsinin vacibliyini önə çəkib. "HƏMAS tərəfindən saxlanılan 48 girovu azad etməyin və müharibəyə, Qəzzada bombardmanlara, qırğınlara və əhalinin qaçqınlığına son qoymağın vaxtı çatıb", - Makron bildirib.



### Simvolizm, yoxsa Qüdsdən Təl-Əvivə uzanan yol...

Bir çox siyasətçilər bu cür qərarların əsasən "simvolik xarakter" daşıdığını bildirirlər - bununla belə, hüquqi tanınma prosesi dövlət quruculuğunun legitimləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd edək ki, Fələstin dövlətinin yaradılması hələ 1988-ci ildə elan edilib. O vaxtdan bəri üç onillik ərzində əksər ölkələr bu dövlətin əsas meyarlara cavab verməməsinin aşkar uğursuzluğuna baxmayaraq, onun legitimliyini tanıyıb. Qlobal Cənubdakı əksər ölkələr Fələstini tez bir zamanda tanıdı. Son proseslərə qədər BMT-yə üzv olan 193 ölkədən 150-yə yaxını Fələstin dövlətini tanıyıb - Meksika bu ilin yanvarında bunu edən sonuncu dövlət olub.

2012-ci ildə BMT-nin qərarı ilə Fələstinə BMT Baş Assambleyasında müşahidəçi statusu verilib. Bu o deməkdir ki, Fələstin dövləti BMT-nin qərarlarının qəbulunda iştirak edə bilər, lakin onlara səs verə bilməz.

Təşkilatın tamhüquqlu üzvü olmaq üçün isə Təhlükəsizlik Şurasının 15 üzvündən ən azı doqquzunun razılığı lazımdır. Daimi üzvlər - Çin, Fransa, Rusiya, Böyük Britaniya və ABŞ veto hüququna malikdir. İsrailin əsas müttəfiqi olan ABŞ-ın sülh əldə olunmayana qədər Fələstini tanıması inandırıcı deyil. Fakt ortadadır - 2024-cü ilin mayında BMT Baş Assambleyası Təhlükəsizlik Şurası üzvlərini Fələstin Muxtariyyətini təşkilatın tamhüquqlu üzvü kimi tanımağa çağırış etsə də, bu, Vaşinqton tərəfindən rədd edilmişdi.

İsrail hakimiyyəti isə verilən bu qərarları düzgün hesab etmir - Fələstin dövlətinin yaradılmasının qarşısını almaq Netanyahunun prinsipial mövqeyidir. O, 1993-cü il Oslo razılaşmasından sonra Fələstin dövlətinin yaradılmasının mümkünsüzlüyü haqda açıq bəyanatlar verib. Alternativ kimi isə İsrailin hazırkı baş naziri status-kvonun saxlanmasını təklif edir: Fələstin qeyri-müəyyən beynəlxalq hüquqi statusa malik muxtar qurum olaraq qalır, ərazisi üzərində hərbi nəzarət İsraildə olmalıdır.

Mahmud Abbasın başçılıq etdiyi Fələstin administrasiyası İsraillə razılaşmalara uyğun olaraq İordan çayının Qərb Sahilinin bəzi bölgələrində məhdud özünüidarəetmə tətbiq edir. Fələstin vətəndaşlarına pasportlar verilir - Fələstinin səhiyyə və təhsil sistemləri məhz bu administrasiya tərəfindən idarə olunur. 2007-ci ildə baş verən qısa vətəndaş müharibəsindən sonra, HƏMAS silahlı qruplaşması Abbasın Fəth hərəkatını Qəzza zolağından çıxarıb. Artıq 18 ildir ki, Qəzza anklavı HƏMAS-ın əlindədir - amma Fələstin administrasiyası anklavdakı bir çox səhiyyə və təhsil işçilərinin maaşlarını maliyyələşdirməyə davam edir.

Səfirliyini Qüdsə köçürən ABŞ istisna olmaqla, əksər böyük dövlətlərin diplomatik korpusları Təl-Əvivdə yerləşir. Çin, Rusiya, Yaponiya, Almaniya, Kanada, Danimarka, Misir, İordaniya, Tunis və Cənubi Afrika da daxil olmaqla 40-a yaxın ölkə Ramallahda - İordan çayının Qərb Sahilində və ya Şərqi Qüdsdə konsulluq ofislərini saxlayır. Beynəlxalq hüquq fələstinlilərin paytaxt etmək istədikləri bu ərazinin İsrail tərəfindən ilhaqını tanımır. Fələstin dövlətini tanımağı planlaşdıran ölkələr bu qərarın onların diplomatik nümayəndəliklərinin yerləşməsinə necə təsir edəcəyini isə hələ açıqlamayıblar. Tanınma elan edilsə də, Fələstin dövlətinin sərhədləri və mahiyyəti, Qüdsün statusu və İsrailin müstəqillik elanından sonra 1948-49-cu illər müharibəsindən qalan fələstinli qaçqınların taleyi də daxil olmaqla ən çətin məsələlər həll olunmamış qalır.

### ABŞ "yox" deyir: baxış fərqləri mövcuddur...

Birləşmiş Ştatlar avropalı müttəfiqlərinin Fələstini tanıma səylərinə qəti şəkildə qarşı çıxır. ABŞ cavab olaraq Fələstin rəsmilərinə sanksiya tətbiq edib - o cümlədən Mahmud Abbas və digər Fələstin muxtariyyət rəsmilərinin BMT Baş Assambleyasında iştirakı qadağan olunub, onların vizaları rədd edib və mövcud olanları ləğv olunub. ABŞ prezidenti Donald Tramp daha əvvəl bildirmişdi ki, Fələstin dövlətinin tanınması HƏMAS-ı cəsarətləndirə bilər. Böyük Britaniyaya dövlət səfərindən sonra Kir Starmerlə birgə mətbuat konfransı zamanı bu barədə suala cavab verən Tramp məsələyə "baxış fərqləri" olduğunu qeyd etdi.

### Türkiyənin reaksiyası: qlobal təhlükəsizlik meyarı işə düşür...

Prosesin inkişafına Türkiyənin də münasibəti həm vacib, həm də maraqlıdır - o baxımdan ki, Yaxın və Orta Şərqin ən mühüm geosiyasi oyunçusu kimi Türkiyə Fələstinə açıq dəstək verir. Hazırkı proses də demək olar ki, bütün miqyaslarda Ankaranın maraqları ilə uzlaşır - bunu, dövlət başçısının açıqlamasında da görmək mümkündür. Türkiyə hər zaman bu problemin regional müstəvidə məhdudlaşdırılmasının əleyhinə olub - əksinə, münaqişənin qlobal təhlükəsizlik kontekstində izah edilməsinin vacibliyini önə çəkib. Bu ştrixlər Prezident Rəcəb Tayyib Ərdoğanın BMT Baş Qərargahında keçirilən "Fələstin məsələsinə çözüm tapılması və iki dövlətli həllin həyata keçirilməsi" adlı yüksək səviyyəli beynəlxalq konfransda çıxışında da özünü göstərib. Ərdoğan deyib ki, "Fələstin davası artıq bütün dünyanın məsələsinə çevrilib. İsrailin məqsədi fələstinliləri sürgün etmək və bölgədə yayılmaq planlarını reallaşdırmaqdır. Buna heç vaxt icazə verilə bilməz".

Prezident beynəlxalq ictimaiyyəti Qərbi Şəriyadakı işğalı, Şərqi Qüdsdəki olanlar və bölgədəki qeyri-sabitliyi dayandırmağa çağırıb. O, bunun həm hüquqi, həm də vicdani məsuliyyət olduğunu vurğulayıb. Ərdoğan çıxışının sonunda bildirib ki, dərhal atəşkəs elan olunmalı, Qəzzəyə humanitar yardımlar maneəsiz çatdırılmalı və İsrail qüvvələri bölgədən geri çəkilməlidir.

Bu isə Türkiyənin bölgədə formalaşdırmağa çalışdığı yeni "sülh və əməkdaşlıq" formuluna uyğun istiqamətidir. Başqa sözlə, bölgədə yaranacaq yeni atəşkəs və ya sabitlik Türkiyənin regionla bağlı addımlarını sürətləndirəcək. Suriya və digər problemlər (hətta İran belə) bu sülh presedenti (yalnız prosesin nəticəyə hesablanan istiqməti fonunda) sayəsində yeni bir həll modeli də qazana bilər.

### Bölgəyə təsir: sülh və sabitlik nə vəd edir?




O ki qaldı, bu prosesin ümumən bölgəsəl təsirlərinə, burada məsələyə fərqli prizmalardan yanaşmaq lazım gəlir. Məsələn, "tanıma prosesi"nin miqyasının artması və genişlənməsinin Fələstin üçün dərhal və ən görünən faydası beynəlxalq səviyyədə daha geniş legitimlik, səfirliklərin açılması və diplomatik əlaqələrin normallaşmasıdır. Bu, Fələstinin beynəlxalq platformalarda səlahiyyətlərini artıracaq. Bu addımlar paralel olaraq İsrail-Qərb münasibətlərinə təsir və diplomatik təzyiq mexanizmlərini aktivləşdirə bilər - bu addımlar İsrail ilə "tanıyan ölkələr" arasında gərginlik yaradacaq. Hətta İsrailin tənqidi və qarşı addımlarının (məsələn, diplomatik notalar, iqtisadi sanksiya riskləri və ya hərbi-siyasi əlaqələrin icmalına dair bəyanatlar) da müşahidəsi mümkündür.

Ən əsası isə bu proses regional siyasi dinamikaya yol açacaq. Ərəb dünyasında uzun müddətdir Fələstinə dəstək mövcuddur - Qərbin addımı isə ərəb ölkələri ilə Avropa arasındakı dialoqu asanlaşdıra, həmçinin yeni vasitəçilik təşəbbüslərini doğura bilər. Yuxarıda da qeyd edildiyi kimi, Türkiyə kimi genişmasştablı oyunçular diplomatik fəallığı artıraraq oxşar addımları stimullaşdıra bilərlər.

Məsələnin ən kritik yeri isə təhlükəsizlik riskidir. Çünki proses qısa müddətdə Yaxın və Orta Şərqə sülh gətirəcəyinə zəmanət vermir. Əksinə, bu kimi addımlar münasibətləri daha da kəskinləşdirmək qabiliyyətinə malikdir.

### Mümkün ssenarilər: ciddi dəyişikliklər üçün...

Prosesin inkişaf ssenariləri nə vəd edir? Qərb KİV-ləri prosesi bir çox ssenarilər üzrə inkişafını istisna etmir - onlar ilk növbədə bu ssenariləri qısa müddətli və ya orta - uzun müddətli kimi xarakterizə edirlər. Qısamüddətli ssenari daha çox "sülh üçün diplomatik sıçrayış" konsepsiyası şəklində izah olunur. Belə ki, siyasətçilərin fikrincə, tanıma ilə birlikdə geniş multilateral vasitəçilik, ağır beynəlxalq təzyiqlər və təhlükəsizlik zəmanətləri (məsələn, çoxmillətli kontingentlər, sərhəd və təhlükəsizlik mexanizmləri) həyata keçirilərsə, danışıqlar canlana, iki dövlətli həll üçün praktik zəmin yarana və uzunmüddətli normallaşma ortaya çıxa bilər. Bunun üçün ABŞ-ın passivliyi aradan qalxmalı, digər oyunçular arasında koordinasiya təmin olunmalıdır.

Digər ssenari isə Fələstinin beynəlxalq platformalarda tanınmasını, amma təhlükəsizlik problemlərinin həll olunmamasını təlqin edir. Belə olacaq təqdirdə hüquqi və diplomatik əlverişlilik artsa da, real-siyasi həll gecikəcək.

Nəticə etibarı ilə, Qərb ölkələrinin Fələstini tanıması böyük diplomatik mərhələdir, Yaxın və Orta Şərqdə siyasi-mənəvi və hüquqi mənada ciddi dəyişikliklərə səbəb olacaq. Bu dəyişikliklərin sülhə çevrilməsi üçün tanınma təkcə simvolik addım olmamalı, konkret təhlükəsizlik, inzibati və iqtisadi mexanizmlərlə müşayiət olunmalıdır. Əks halda, tanınma diplomatik qazanc sayılsa da, meydanda yeni gərginlik və humanitar çətinliklər üçün şərait yarana bilər.

*PƏRVİZ SADAYOĞLU*

# Dialoq, yoxsa silahlanma yarışı...

## Vaşinqton-Moskva münasibətlərinə "Yeni START"

Rusiya ilə ABŞ arasındakı münasibətlər uzun illərdir beynəlxalq siyasətin əsas təyinedici amillərindən birinə çevrilib. Soyuq müharibə dövründən sonra "strateji rəqib və ya tərəfdaşlıq" ziqzaqları ilə dəyişən bu əlaqələr XXI əsrdə yeni geosiyasi çağırışlar fonunda daha da mürəkkəbləşib. Ukrayna müharibəsi, qlobal enerji böhranı, beynəlxalq təhlükəsizlik arxitekturasının sarsılması və silahlanma yarışının yenidən aktivləşməsi Moskva - Vaşinqton xəttində gərginliyi pik həddə çatdırıb.

Bununla belə, son 9 ayda münasibətlərdə yeni bir xətt müşahidə olunmaqdadır. Siyasi mütəxəssislərin "buzların əriməsi" kimi xarakterizə etdiyi bu dövr Rusiya-ABŞ münasibətlərində yeni bir mahiyyət yaradıb. Donald Trampın Rusiya ilə bağlı bir çox "ılıq açıqlamaları", Vladimir Putinin Alyaskanı "ziyarət etməsi" və bu kimi bir çox proseslərin fonunda münasibətlərin uçurumun kənarından geriyə doğru yol aldığını deməyə əsas verir. Bir neçə gün öncə Rusiya prezidentinin Təhlükəsizlik Şurasının iclasında vurğuladığı bəzi məqamlar isə ortaya düşündürücü məqamlar çıxarır.

### Rusiya prezidentindən təklif...

Qeyd edək ki, sentyabrın 22-də Rusiya prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının üzvləri ilə görüşdə bildirib ki, Rusiya Yeni Strateji Hücum Silahlarının Azaldılması (Yeni START) müqaviləsinin 2026-cı il fevralın 5-də müddəti bitdikdən sonra daha bir il ərzində kəmiyyət məhdudiyyətlərinə könüllü şəkildə əməl etməyə hazırdır. O bildirib ki, bu könüllü özünüməhdudlaşdırmaların davam etdirilməsi ilə bağlı qərar vəziyyətin təhlili əsasında veriləcək. O, həmçinin hesab edir ki, belə bir tədbir Birləşmiş Ştatlar üçün də nümunə olacaq. Rusiya prezidenti deyib ki, məhdudiyyətlərə davamlı olaraq riayət etmək daha çox strateji silahlanma yarışına təhrik etməmək və Yeni START tərəfindən müəyyən edilmiş status-kvonu saxlamaq üçün lazımdır.

### Mesajın "oxunuşu"...

Qeyd edək ki, siyasi analitiklər Vladimir Putinin səsləndirdiyi mesajın arxasında ABŞ-ın "sülh təklifi"nə cavabın "gizləndiyini" irəli sürür. Vurğulanır ki, Putinin bu açıqlamasının siyasi mesajı strateji sabitliyin Qərblə yanaşı, Moskvanın güc və təhlükəsizlik konsepsiyasının ayrılmaz hissəsi olmasını bildirməsidir. Hərbi mesaj isə ondan ibarətdir ki, əgər ABŞ Rusiya ilə müzakirələrdə qarşılıqlı güzəştlərə getməsə, Moskva nüvə arsenalını məhdudlaşdırmaq öhdəliklərindən çıxaraq yeni silahlanma yarışına başlayacaq. Nəhayət diplomatik mesajda Kreml Vaşinqtona bildirir ki, Ukrayna böhranı fonunda digər məsələlərdə - xüsusən də nüvə təhlükəsizliyi, təmas və dialoq kanalları açıq qalmalı, müzakirələr aparılmalıdır. Hazırkı durum olduqca gərgin sayılır - hətta mövcud vəziyyəti bir çox baxımdan 1980-ci illərin gərginlikləri ilə müqayisə edirlər. Fərq ondadır ki, indi tərəflər arasında etimad mexanizmləri daha çox zəifləyib.

Müqavilənin gələcəyi ilə bağlı baxışlar da müxtəlifdir - bir çox siyasətçilər düşünür ki, tərəflər yeni hüquqi çərçivə üzərində razılığa gəlməsələr, dünyada nüvə silahlarının nəzarətsiz artımı təhlükəsi yaranacaq. Bu isə bütövlükdə geosiyasi mühitə təsir edəcək. Hətta Çin, Hindistan, İran və Şimali Koreya kimi oyunçular da nüvə siyasətində daha fəal rol almağa çalışacaq - bu isə qlobal nüvə balansının dəyişməsinə belə yol aça bilər.



### 15 illik tarixə malik müqavilə...

Qeyd edək ki, Yeni START Müqaviləsi 2010-cu ildə Praqada o zamankı Rusiya prezidenti Dmitri Medvedev ilə o dövrün ABŞ dövlət başçısı Barak Obama tərəfindən imzalanıb. Müqavilə nüvə arsenalları digər dövlətlərinkindən qat-qat artıq olan Rusiya və ABŞ-ın strateji hücum silahları üçün kəmiyyət və keyfiyyət çərçivələrini müəyyən edən əsas mövcud sazişdir. Sənəd yerləşdirilmiş nüvə başlıqlarının hər tərəf üçün 1550-yə, qitələrarası ballistik raketlərin, sualtı qayıqlardan buraxılan ballistik raketlərin və ağır bombardmançı təyyarələrin isə 700-ə endirilməsini nəzərdə tutur. Nüvə obyektlərinin yoxlanılması qarşılıqlı yoxlama vasitəsi kimi Yeni START Müqaviləsinə daxil edilib. Yeni START Müqaviləsi ilkin olaraq on ildən sonra - 2021-ci ilin fevralına qədər başa çatmalı idi. Bununla belə, razılaşma onun qarşılıqlı razılaşma yolu ilə əlavə beş il müddətinə uzadılması imkanını ehtiva edirdi və bu addım atıldı. Hazırkı razılaşmaya əsasən Yeni START Müqaviləsi 2026-cı il fevralın 5-də başa çatmalıdır. Bu isə, nüvə raketlərinin imkanlarını birbaşa məhdudlaşdıran sonuncu beynəlxalq müqavilənin aradan qalxması demək olacaq. Siyasi mütəxəssislər bu müqavilənin müddətinin artırılmamasını dünya üçün böyük fəlakət adlandırırlar.

Xatırladaq ki, 2023-cü ilin fevralında Putin Rusiyanın Yeni START Müqaviləsində iştirakını dayandırdığını elan etmişdi. O, Moskvanın müqavilədən çıxmadığını, sadəcə, iştirakını dayandırdığını vurğulamışdı - Rusiya dövlət başçısı o zaman atdığı addımı ABŞ-ın keçmiş prezidenti Co Bayden administrasiyasının apardığı siyasətlə əlaqələndirmişdi.

### Ən yaxşı və ən pis...

Kremldən Ağ Evə "uzanan əl" özlüyündə optimist gələcək üçün də böyük ümidlər yaradır. Təhlillərə görə, ABŞ və Rusiya yeni razılaşma üzərində işləməyə başlasa, strateji sabitlik qismən qoruna bilər. Bu, yalnız Ukrayna böhranı fonunda diplomatik müzakirələrin aktivləşməsi fonunda mümkün olacaq. Hətta ən pis nəticə kimi mövcud müqavilənin faktiki olaraq dondurulması belə kəskin nəticələ yol açmayacaq - çünki tərəflər silahlanma limitlərinə riayət etməsələr də, açıq konfrontasiyadan qaçırlar. Qərb analitikləri bu vəziyyəti "təhlükəli sabitlik" dövrü" adlandırır.

*P.İSMAYILOV*

# NATO müttəfiqlərini qoruyacaq?

## Rusiya Polşa və Baltikyanı ölkələrə təhdidləri davam etdirərsə...

Yaxın zamanda Rusiyanın Şərqi Avropa və Baltikyanı ölkələrə qarşı təhdidlərinin artmasının şahidi ola bilərik. Sözsüz ki, bu, hər iki regionda sülh və sabitliyə təhdid yaradır və mövcud sabit vəziyyətin davamlığına şübhələri artırır. Xatırladaq ki, sentyabrın 10-na keçən gecə Rusiyanın Ukraynanın qərbinə genişmiqyaslı hücumu zamanı bu ölkənin onlarla pilotsuz təyyarəsi Polşanın hava məkanını pozub. Polşa Müdafiə Nazirliyi pilotsuz təyyarələrin vurulduğunu, onların qalıqlarının sərhəd bölgələrində tapıldığını, lakin itkilərin olmadığını bildirib. Polşanın Baş naziri Donald Tuskun sözlərinə görə, sentyabrın 9-dan 10-na keçən gecə ölkənin hava məkanı 19 dəfə pozulub. Həmin gün Rusiyanın pilotsuz təyyarələri Rumıniyanın hava məkanında da görünüb. Sentyabrın 20-də isə "Kinjal" raketləri ilə təchiz edilmiş iki rus MİQ31 qırıcıları Baltik dənizində Polşanın "Petrobaltik" neft platforması üzərində uçuşlar həyata keçirib. Polşa Sərhəd Mühafizəsinin məlumatında qeyd olunur ki, rus qırıcıları neft platformasının təhlükəsizlik zonasını pozaraq, aşağı hündürlükdə uçub. Uçuş hündürlüyü 150 metr olub. Təyyarə platformaya o qədər yaxın olub ki, bu, platformaya ciddi təhdid yaradıb. Polşa və Rumıniya ilə yanaşı Estoniya da eyni hallarla üzləşib - sentyabrın 19-da Rusiyaya məxsus üç "MİQ-31" qırıcısı Estoniyanın hava məkanına daxil olub və orada təxminən 12 dəqiqə qalıb. Rusiyanın bu hərəkətlərindən sonra NATO həm Varşava, həm də Tallinin xahişinə əsasən alyans üzvləri arasında məsləhətləşmələrə başlamaq üçün Alyans müqaviləsinin 4-cü maddəsini işə salıb. Moskvanın Polşa və Estoniyaya təhdidlərinə ABŞda səssiz qalmayıb. Prezident Donald Tramp Ağ Evin mətbuat xidmətinin əməkdaşları ilə son görüşündə bəyan edib ki, ABŞ Rusiya ilə gərginlik artacağı təqdirdə Polşa və Baltikyanı ölkələrə müdafiə yardımı göstərəcək.

### Kremlin məqsədi nədir?

Son hadisələri şərh edən Qərb ekspertləri hesab edirlər ki, Rusiya heç bir zaman NATO-nun şərq sərhədlərinə - Şərqi Avropa və Baltikyanı ölkələrə hücum etməyə cəhd etməz - onların fikrincə, Moskvanın Rumıniya, Polşa və Estoniyanın hava məkanını bilərəkdən pozmaqda məqsədi alyansın hərbi münaqişəyə hazır olmaq imkanlarını, xüsusilə ABŞ-ın hazırkı administrasiyasının reaksiyasını yoxlamaqdır. Ağ Ev də artıq Rusiyanın bu hərəkətlərinə reaksiya verib. Kreml çox yaxşı bilir ki, Rusiya NATO ilə genişmiqyaslı müharibəyə cəlb olunmaq üçün o qədər də geniş imkanlara sahib deyil - Şərqi Avropa və Baltikyanı ölkələrin ərazilərinə hərbi müdaxilə olacağı təqdirdə NATO da cavab xarakterli tədbirlər görəcək. Nüvə silahına malik olan ABŞ, Böyük Britaniya və Fransa qeyd-şərtsiz müharibəyə qoşulacaq. Üç ölkə öz ərazisindən ballistik raketlərlə Rusiyanın hərbi obyektlərinə zərbələr endirəcək. Bu, hətta nüvə müharibəsinə də gətirib çıxara bilər. Bu səbəbdən Rusiyanın hərbi-siyasi rəhbərliyinin NATO ilə müharibədə maraqlı olması inandırıcı görünmür. Eyni zamanda ekspertlər vurğulayır ki, Rusiya bu cür hərəkətlərlə, həmçinin Avropa ölkələrinə mesaj göndərir. Qeyd edək ki, ABŞ ilə Avropa ölkələri arasında son görüşlərdə Ukraynada post-müharibə dövründə bu ölkədə cəbhə xətti boyunca atəşkəsi təmin etmək üçün avropalı hərbçilərdən ibarət qoşunların yerləşdirilməsi ilə bağlı aparılan müzakirələr Rusiya tərəfindən birmənalı qarşılanmayıb. İstər XİN rəhbərliyi, istər Müdafiə Nazirliyi, istərsə də prezident səviyyəsində Moskva Ukraynada hər hansı Avropa ölkəsinin qoşunlarının yerləşdirilməsinə razı olmayacağını və həmin qoşunların Rusiyanın hədəfində olacağını bəyan edib. Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, belə bir hal baş verəcəyi təqdirdə Moskva sərt tədbirlərə əl atacaq - "Əgər NATO baş katibinin dediyi kimi Ukraynada Avropa qüvvələrinin yerləşdirilməsində Rusiyanın heç bir söz haqqı yoxdursa, o zaman bu qüvvələr Ukraynada peyda olan kimi Moskva onları qanuni hədəf elan edəcək". Bununla yanaşı, sentyabrın 12-dən 16 - dək Belarusda keçirilən, təxminən 13 minə yaxın rus və belarus hərbçilərinin birgə "Zapad-2025" təlimləri də xüsusi hədəfə yönəlib - Rusiya Avropa ölkələrini öz addımlarında diqqətli olmağa çağırır. Görünür, Moskva indidən Avropa ölkələrinə xəbərdarlıq etməyə başlayıb.




### NATO Polşa və Baltikyanı ölkələri müdafiə etməyə hazırdır

Bu il Fransa və Almaniya Avropanın hərbi istehsalını gücləndirmək məqsədilə 150 milyard avroluq müdafiə fondu yaratmaq barədə razılığa gəliblər. Fondun strategiyasında bir çox prioritetlər artıq müəyyən olunub. Böyük Britaniya, Norveç, İsveçrə və Türkiyə kimi Aİ üzvü olmayan ölkələr də bu fonda qoşula bilərlər. Xüsusilə, Fransa Prezidenti Emmanuel Makron Polşaya "Rafele" təyyarələri göndərmək niyyətindədir - Makron bu yaxınlarda çıxışında qeyd edib ki, Avropa qitəsinin təhlükəsizliyi rəsmi Parisin ən yüksək strategiyasıdır - "Polşanın hava məkanının Rusiya dronları tərəfindən pozulması ilə əlaqədar olaraq, NATO müttəfiqlərimizlə birlikdə Polşanın hava məkanının və Avropanın şərq qanadının müdafiəsinə töhfə vermək üçün üç "Rafale" döyüş təyyarəsi göndərmək qərarına gəldim.Biz Rusiyanın artan təhdidlərinə qarşı mübarizədə geri çəkilməyəcəyik". Bundan başqa, Polşa və Böyük Britaniya arasında Avropada artan təhlükəsizlik narahatlıqları fonunda hərbi istehsalı və səmərəliliyi artırmaq üçün birgə müdafiə xərclərinin optimallaşdırılması barədə danışıqlar başlayıb. Polşanın müdafiə naziri Andrzej Domanski müdafiə qabiliyyətini gücləndirmək üçün Varşavanın Böyük Britaniya, Aİ və NATO tərəfdaşları ilə əməkdaşlığının daha da möhkəmlənəcəyini vurğulayıb.

### Sankt-Peterburq hədəfdə ola bilər?

2024-cü ilin noyabrında "BILD" Telegram kanalında yayılan məlumata görə, Polşa və Baltikyanı ölkələrin hərbçiləri Rusiya ilə mümkün münaqişə vəziyyətində Sankt-Peterburqa hücum etmək imkanlarını nəzərdən keçirirlər. Məlumatda Litva və Polşa rəsmilərinin fikirləri yer alıb. Litva prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Kyastutis Budris bildirib ki, Ukraynada müharibə bitdikdən sonra Rusiya "ekspansionizm" siyasətini Estoniya, Latviya, Litva və Polşaya yönəldəcək. O, vurğulayıb ki, Belarus tam olaraq İttifaq dövlətinin bir hissəsi olarsa, belə bir ssenarinin baş vermə ehtimalı artacaq. Polşa Baş Qərargahının rəisi Raymund Andjeyçak isə qeyd edib ki, Rusiya qoşunları Litva ilə sərhədi keçərsə, dərhal cavab veriləcək. "Birinci gün deyil, ilk dəqiqədə biz 300 km radiusda olan bütün strateji hədəfləri vuracağıq", - deyə Andjeyçak bildirib. Polşa rəsmisi söyləyib ki, Avropa ölkələri təşəbbüsü öz əllərinə almalıdırlar və Rusiyaya başa salmalıdırlar ki, Polşaya və ya Baltikyanı ölkələrə hücum hərtərəfli qarşıdurmanın başlanğıcı olacaq.

***Yunis ABDULLAYEV***

# Gürcüstan "Maydan"a çevrilməyəcək...

## Rəsmi Tbilisi ölkənin təhlükəli hallarla üzləşdiyini bildirir

Gürcüstanda müxalif qüvvələr növbəti dəfə siyasi çevrilişə əl ata bilərlər. Belə ki, Gürcüstan parlamentinin spikeri Şalva Papuaşvili jurnalistlərə açıqlamasında deyib ki, oktyabrın 4-də baş tutacaq bələdiyyə seçkiləri günü müxalifət və xaricdən maliyyələşən QHT-lər ölkədə "Maydan" təşkil etmək istəyirlər. "Bu, bir neçə partiya və QHT-nin xaricdən təzyiq altında tutduğu təhlükəli yoldur. Bu yol birbaşa "Maydan"a, qan tökülməsinə və iğtişaşlara aparır", - deyə Papuaşvili bildirib. Parlamentin spikeri xatırladıb ki, ötən ilin dekabrında "İsveç hökumətinin nümayəndəsi müxalifəti "Maydan" keçirməyə çağırıb". Onun sözlərinə görə, "bir neçə siyasi qrup və xaricdən maliyyələşən QHT Gürcüstanda 1990-cı illəri canlandırmağa çalışır. Papuaşvili, həmçinin vurğulayıb ki, Gürcüstanda bəzi xarici ölkələrin səfirlikləri müxalif qüvvələr ilə gizli görüşlər keçirir və onların zorakılığı təşviq edən planlarına dəstək verirlər. Qeyd edək ki, Gürcüstanın müxalifət cəbhəsində bəzi qüvvələr oktyabrın 4-də ölkədə keçiriləcək bələdiyyə seçkiləri günü "hökumətin dinc yolla devrilməsi" planlarını açıqlayıb. Bu məqsədlə onlar həmin gün axşam saatlarında sakinləri mərkəzi Rustaveli prospektində toplaşmağa çağırır.



### Qərb niyyətindən əl çəkməyib

Bir neçə gün bundan öncə hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" partiyasının baş katibi, Tbilisi meri Kaxa Kaladze yerli KİV-lərə müsahibəsində bildirib ki, Qərbdəki bəzi dairələr Gürcüstanda dövlət çevrilişinə əl atmağa cəhd edirlər. Onun sözlərinə görə, Gürcüstan təhlükəli hallarla üzləşib. "Ukraynadan Gürcüstana gətirilən heksogen maddəsi ilə bağlı alınan izahatlar və etiraflar sübut edir ki, düşmən sakitləşməyib. Onlar Gürcüstanda dövlət çevrilişi, qan tökülməsi, inqilab və insanlar arasında qarşıdurma təşkil etmək üçün bütün cəhdləri edirlər," - deyə K.Kaxadze bunun çox ağır fakt olduğunu vurğulayıb; "Dövlət Təhlükəsizliyi Xidmətinin bütün əməkdaşlarına qabaqlayıcı tədbirlərə görə təşəkkür edirəm. Bildiyimə görə, istintaq davam edir. Suallar çoxdur, gözləmək lazımdır. Bu cinayət növü ilə məşğul olmaq çox ağır faktdır". Gürcüstanın Baş naziri İrakli Kobaxidze isə bəyan edib ki, Gürcüstanda hər hansı qarışıqlığa, çevriliş cəhdinə yol verilməyəcək və bu istiqamətdə istənilən cəhdə maksimal səviyyədə sərt cavab veriləcək. "Gürcüstanda müxalifət tamamilə zəifləyib, ümidsiz vəziyyətdədir və belə bir vaxtda istənilən təxribatlar mümkündür". Baş nazir qarşıdakı 4 oktyabr seçkilərində müxalifətin uğur qazana bilməyəcəyini də diqqətə çatdırıb. "Biz əvvəlki seçkilərdə olduğu kimi, yenə də qələbə qazanacağıq. Təbii ki, bununla barışmayan və xaricdən maliyyələşən müxalif qüvvələr ölkədə qarışıqlıq yaratmaq istəyəcəklər. Dövlət buna imkan verməyəcək və istənilən təxribatların qarşısı sərt şəkildə alınacaq". Gürcüstan rəsmiləri ilə yanaşı, gürcü ekspertləri də bu məsələyə öz münasibət bildirib - onlar hesab edirlər ki, Gürcüstanın daxilində olan bəzi qüvvələr Qərb dövlətlərinin maraqlarına xidmət edirlər.

### Dövlət Departamentinin sabiq rəsmisindən etiraf

Bir müddət bundan öncə ABŞ Dövlət Departamentinin keçmiş rəsmisi Mayk Benz Gürcüstandakı siyasi prosesləri şərh edərkən bildirib ki, 2024-cü ilin oktyabrın 26-da Gürcüstanda baş tutmuş parlament seçkiləri ərəfəsində Qərbdə bəzi dairələr bu ölkədə üsyanlar təşkil etmək üçün yerli QHT-lərdən istifadə etməyə çalışıb. Onun sözlərinə görə, Qərbin Şərqi Avropa ölkələrində "Fara" kimi qanunların qəbulunu demokratiya üçün təhlükə adlandırması absurd və tamamilə ağılsızlıqdır. Benz deyib ki, reallıqda Qərb şəffaflıq haqqında qanunların qəbulunun QHT-lərin əsl mahiyyətini və məqsədlərini ifşa edəcəyindən ehtiyat edir. "Gürcüstanda, Serbiyada və ya Macarıstanda üsyan təşkil etmək istəyəndə Qərbdəki dairələr QHT şəbəkəsinə və ya vətəndaş cəmiyyətinə müraciət edirlər. Macarıstan, Slovakiya, Serbiya və ümumiyyətlə, Şərqi Avropanın postsovet ölkələri şəffaflıq haqqında qanunlar qəbul etməyə və onların vətəndaş cəmiyyətinin nə dərəcədə xarici hökumətlər tərəfindən maliyyələşdirildiyini öyrənməyə cəhd edəndə isə müəyyən vasitələrlə etiraz edirlər", - deyə Benz əlavə edib: "Təsəvvür edin ki, insanlar küçələrə çıxıb, onların cəmiyyətdə bir xarici gücün maliyyələşməsi ilə bağlı məlumatlara sahib olmalarını tələb edirlər. Bizdə "Xarici agentlərin qeydiyyatı haqqında" qanun var. Agentlər hərəkət edirsə, biz bunu demokratiya üçün təhlükə adlandırırıq, çünki bu, QHT-lərin maskasını açacaq və insanlar onların əsl üzünü biləcəklər. Bu isə yolverilməzdir".

### Qərb "Gürcü Arzusu"ndan niyə narazıdır?

Məsələ ilə bağlı politoloq Əlimusa İbrahimov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Qərb Gürcüstanda öz maraqlarına xidmət edən qüvvələrin hakimiyyətə gəlməsini istəyir. "Gürcüstanda son parlament seçkilərindən sonra Qərb ilə Tbilisi arasında münasibətlər kəskin şəkildə soyuyub. Qərb Gürcüstanın hazırkı hakimiyyətinin xarici siyasətindən narazıdır. Hakim "Gürcü Arzusu- Demokratik Gürcüstan koalisiyası"nın Rusiya ilə münasibətləri normallaşdırması və Qərbin Ukrayna siyasətində eyni mövqedən çıxış etməməsi Qərbdəki bir çox dairələr tərəfindən narazılıqla qarşılanıb. Onlar Gürcüstan iqtidarını Rusiyanın nəzarəti altında olan qüvvə kimi qiymətləndirirlər. Buna görə də uzun müddətdir ki, Qərbin Gürcüstana qarşı təzyiqləri artıb - parlament seçkiləri ərəfəsində gürcü müxalifətinə ciddi şəkildə dəstək nümayiş etdirildi. Qərbdəki dairələrin əsas istəyi bu idi ki, son parlament seçkilərində Qərb meyilli və Qərbin maraqlarına xidmət etməyə hazır olan siyasi qüvvələr qalib gəlsin. Amma bu, baş vermədi. "Gürcü Arzusu - Demokratik Gürcüstan" koalisiyası əlində olan mexamizmlərdən istifadə edərək hakimiyyətini daha da möhkəmləndirdi. Həm parlament, həm də prezident seçkilərində hakim koalisiya tam yekdiklə xalqın etimadını qazandı. Hesab edirəm ki, oktyabrın 4-də baş tutacaq bələdiyyə seçkilərində də hakimiyyətdə olan qüvvələrin qələbə qazanması ehtimalı böyükdür. Müxalifətin isə hakimiyyətə təsir göstərmək imkanları yoxdur. Onlar əvvəlki kimi xaricdən maliyyə ala bilmirlər və "Xarici agentlər" haqqında qanunun qəbul edilməsi ilə onlar bu imkandan məhrum olublar".

***Yunis ABDULLAYEV***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Qırılmış tellərin birləşdiyi yer...

## Laçına növbəti köç reallaşdı

Bu gün işğaldan azad edilmiş ərazilərimizin yolları yenidən insan ayağı, uşaq səsi, ana duaları ilə nəfəs alır. Bu torpaqlar illərdir həsrətin, ayrılığın, amma eyni zamanda ümidin, qürurun və dönməz iradənin ünvanı idi. Bəli, hələ də dağıdılmış evlər, yanmış ağaclar, çöllərə çevrilmiş bağlar var. Amma ən əsası xalq var, iradə var, dövlət var, Ali Baş Komandanın rəhbərliyi ilə zəfər qazanmış ordumuz var.

Bəzən torpağın özünün də insan nəfəsinə ehtiyacı olur. Həmin torpaqlarımızdan biri də Laçındır. İndi həmin torpağa nəfəs veririk, ailə ocaqlarıyla, məktəblərlə, uşaq gülüşləriylə, dua ilə... Nəhayət, illərlə çəkilmiş ağrıların, hicranın sonu gəlib çatdı, işğaldan azad edilmiş digər ərazilərimiz kimi Laçına da köç başlandı. Bu, sadəcə, fiziki bir köç deyil, bir xalqın kökündən qopmadığını, torpağına sədaqətini nümayiş etdirən böyük bir dönüşdür.

## İlk köç...

Xatırladaq ki, Laçına ilk köç 2023-cü il mayın 27-də baş tutmuşdu. Həmin gün Prezident İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib. Birinci mərhələdə şəhərə 20 ailə, yəni 97 nəfər köçürülmüşdü.

## 86 nəfər yola salındı

Dünən Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Laçın şəhərinə növbəti köç karvanı yola salınıb. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.

Bu mərhələdə Laçın şəhərinə daha 20 ailə - 86 nəfər köçürülüb.



## Prezidentin dedikləri reallaşır...

Ölkə başçısı 2023-cü ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımların atılacağını vurğulamışdı: "Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır.

Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq. Biz bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik.

Dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim, deyirdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək".

Laçına köç qoparılan bütün tellərin birbir yenidən bağlandığı, ruhun dirildiyi, xalqın ayağa qalxdığı müqəddəs başlanğıclardan biridir. Bu başlanğıcda hər birimizin izi, hər birimizin səsi var...

***Yeganə BAYRAMOVA***

# Regionlarımız necə inkişaf edir?

Dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi prioritetlərindən biri regionlar arasında tarazlı inkişafın qorunub saxlanılmasıdır. Çünki güclü iqtisadiyyat yalnız paytaxtla ölçülmür, bütün bölgələrin inkişafı dövlətin iqtisadi potensialını və qüdrətini artır. Azərbaycanda həyata keçirilən iqtisadi siyasət də bu prinsiplərə söykənir və regionların sosial-iqtisadi inkişafı ilə bağlı davamlı proqramların icrası milli prioritet kimi 20 ildən çoxdur ki, ön planda dayanır.

Bu gün ucqar kəndlərə baxdıqda illər əvvəl xarakterik olan yarımçıq infrastrukturları, iqtisadi-sosial baxımdan çətinlikləri əvəz edən müasir inkişaf meyalarının və insanların layiqli həyat şəraitini müşahidə etmək mümkündür. Yeni yollar çəkilməsi, qazlaşdırma və su təchizatının genişləndirilməsi, zəruri həyatı vacib infrastruktur təminatlarının yaradılması, kənd təsərrüfatı və sənaye sahələrinin dirçəldilməsi regionların simasında nəzərəçarpacaq dəyişikliklər yaradıb.

Regionların inkişafı təkcə iqtisadi göstəricilərin yaxşılaşması ilə məhdudlaşmır. Eyni zamanda sosial təminat imkanları da yüksəlir. Sosial infrastrukturlar - məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, idman obyektlərinin inşası və digər sistemli tədbirlər sayəsində bölgələrdə məşğulluq imkanları artıb, insanlar iş yerləri ilə təmin olunub, onların sosial rifahı güclənib. Bütün bu sadaladıqlarımız sosial ədalətin təminınə və insan kapitalının inkişafına xidmət edir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə hazırlanmışdır**

Mövzuya dair "Yeni Azərbaycan"a açıqlama verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Müşfiq Cəfərov bildirib ki, regionların sosial-iqtisadi inkişafı ölkəmizin davamlı tərəqqisi üçün əsas prioritetlərdən biridir. Ötən illər ərzində regionların inkişafı istiqamətində müxtəlif proqramlar həyata keçirilib, infrastruktur layihələri icra olunub, sahibkarlığın inkişafına, kənd təsərrüfatının modernləşdirilməsinə və insan kapitalının gücləndirilməsinə xüsusi diqqət yetirilib. Deputatın fikrincə, regionların sosial-iqtisadi inkişafında hələ də bir sıra problemlər mövcuddur ki, onların aradan qaldırılması məqsədilə sistemli və çoxşaxəli yanaşma tələb olunur: "Regionlarda sosial-iqtisadi inkişafın balanslaşdırılması ölkə iqtisadiyyatının dayanıqlığını artırır və sosial sabitliyin təmin olunmasında həlledici rol oynayır. Hazırda Azərbaycanın bir sıra regionlarından əhali kütləvi şəkildə Bakı və digər iri şəhərlərə köç edir. Bu, regionların əmək bazarının daralmasına, yerli sosial xidmətlərin və infrastrukturun zəifləməsinə səbəb olur. Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, iş yerlərinin yaradılması və təhsil imkanlarının artırılması bölgələrdə yaşayış səviyyəsinin yüksəlməsinə gətirib çıxaracaq".

## Regionlararası nəqliyyat bağlantılarının yaxşılaşdırılması vacibdir

M.Cəfərov hesab edir ki, regionların iqtisadi inkişafında əsas çətinliklərdən biri onların ərazilərarası qeyri-bərabərliyi və iqtisadi şaxələndirmənin zəif olmasıdır. "Bəzi regionlarda iqtisadiyyat əsasən kənd təsərrüfatına və tək-tək sənaye sahələrinə bağlıdır. Bu isə regionların iqtisadi dayanıqlığını azaldır və onların iqtisadi artım perspektivlərini məhdudlaşdırır. İqtisadi şaxələndirmə və yeni sənaye sahələrinin yaradılması yerli iqtisadiyyatın inkişafı üçün vacibdir. Bundan əlavə, bəzi regionlarımız sərhəd zonalarında yerləşdiyindən, orada investisiya mühiti məhdudlaşır. Həmçinin, idxalın baha başa gəlməsi, logistika xərclərinin yüksəkliyi və kommunikasiya problemləri yerli sahibkarlığın inkişafına mənfi təsir göstərir. Bu problemlərin həlli üçün infrastruktur layihələrinin genişləndirilməsi və regionlararası nəqliyyat bağlantılarının yaxşılaşdırılması vacibdir".



## İnsan kapitalının artırılması diqqət mərkəzindədir...

Deputatın sözlərinə görə, regionların sosial-iqtisadi inkişaf proqramları çərçivəsində hazırda işğaldan azad edilmiş ərazilərdə də yol infrastrukturu, energetika, təhsil və səhiyyə sahələri üzrə çoxsaylı layihələr icra olunur: "Azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi regionun sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına mühüm töhfə verir".

Millət vəkili regionların inkişafında insan kapitalının rolunun artırılmasını da mühüm faktor hesab etdiyini bildirib. Belə ki, bölgələrdə təhsil və peşə hazırlığına sərmayə qoyuluşu əmək bazarının tələblərinə uyğun ixtisaslı kadrların formalaşmasına şərait yaradır. Bu isə həm yerli sahibkarlığın inkişafına, həm də iş yerlərinin artırılmasına imkan verir. Eləcə də, kiçik və orta sahibkarlığın dəstəklənməsi, yeni biznes təşəbbüslərinin təşviqi regionlarda iqtisadi dinamikanı yüksəldir və sosial rifahın yaxşılaşmasına səbəb olur. Bu baxımdn həm dövlət, həm də özəl sektor arasında əməkdaşlıq möhkəmləndirilməli, maliyyə və qeyri-maliyyə dəstəyi mexanizmləri təkmilləşdirilməlidir".

M.Cəfərov onu da bildirib ki, regionların sosial-iqtisadi inkişafı çoxşaxəli yanaşma və uzunmüddətli strategiya tələb edir. Yeni iqtisadi şəraitə və inkişaf tələblərinə uyğun olaraq, iqtisadi şaxələndirmə tədbirlərinin artırılması, sahibkarlığın stimullaşdırılması, digər institisional islahatların davam etdirilməsi regional siyasətin effektivliyini daha da artıra bilər. Nəticədə, regionlarda iqtisadi imkanlar və sosial rifah yüksələr, ölkə iqtisadiyyatı daha da güclənmiş olar".

***Sahib***

# Azercell istifadəçilərinə 3 aylıq pulsuz "Wolt+" abunəliyi təqdim edir!




Azercell müştərilərinə gündəlik sifarişlərdə rahatlıq və daha əlverişli xidmət imkanları təqdim edən yeni kampaniyaya start verir. Kampaniya çərçivəsində abunəçilər 3 ay müddətində ödənişsiz "Wolt+" abunəliyindən faydalana biləcəklər.

"Wolt+" abunəliyi istifadəçilərə restoran və mağazalardan pulsuz çatdırılma, "take away" sifarişlərinə 10% endirim və eksklüziv təkliflərdən yararlanmaq imkanı verir, gündəlik sifarişləri daha səmərəli və rahat edir.

Kampaniyadan faydalanmaq üçün Azercell tətbiqində yerləşən "Wolt+" bannerinə klik edərək promo kodu aktivləşdirmək kifayətdir.

Ətraflı məlumat üçün: Wolt+ kampaniyası | Azercell

# Azercell ilə şəhərdaxili mikromobillikdə yeni mərhələ

"Wingz" ilə əməkdaşlıq çərçivəsində skuterdə gediş haqqını mobil balans vasitəsilə ödəmək mümkün oldu

Azərbaycanda mobil rabitə sahəsində innovativ həllər təqdim edən Azercell, mikromobillik üzrə ixtisaslaşmış "Wingz" MMC ilə əməkdaşlıqda şəhərdaxili hərəkətliliyə müasir və ekoloji yanaşma gətirir. Bu tərəfdaşlıq nəticəsində abunəçilər skuter istifadəsinə görə ödənişi əlavə vasitələrə ehtiyac olmadan birbaşa mobil balansları ilə həyata keçirə biləcəklər.

Xidmətin istifadəsi olduqca rahatdır: abunəçi skuterin üzərində qeyd olunan yeddi rəqəmli identifikasiya nömrəsini (ID) "START ID" (START XXXXXXX) formatında 4545 qısa nömrəsinə SMS vasitəsilə göndərərək cihazı aktivləşdirir və müvafiq ödəniş balansdan çıxılır. Gediş vaxtından əvvəl dayandırıldıqda istifadə olunmamış dəqiqələr üçün vəsait balansa geri qaytarılır. İstifadəni sonlandırmaq üçün isə skuterin üzərində qeyd olunan yeddi rəqəmli identifikasiya nömrəsini (ID) "STOP ID" (STOP XXXXXXX) formatında 4545-ə göndərmək kifayətdir. Əgər gediş vaxtında dayandırılmasa, hər növbəti 15 dəqiqə üçün ödəniş avtomatik hesablanır.

Xidmət istifadəyə verildiyi tarixdən etibarən iki həftə ərzində həyata keçirilən ilk aktivasiyada gedişin ilk 15 dəqiqəsi Azercell tərəfindən abunəçilərə hədiyyə olunacaq.

Bu əməkdaşlıq şəhərdaxili hərəkəti asanlaşdırmaqla yanaşı, həm də "ağıllı şəhər" konsepsiyasının inkişafına və dayanıqlı həyat tərzinin təşviqinə töhfə verir.




Azercell müasir texnologiyaları gündəlik həyata gətirərək abunəçilərinə rahat, çevik və innovativ həllər təqdim etməyə davam edir.

# "Nar"ın dəstəyi ilə ölkəmizdə ilk inklüziv intellektual oyun turniri baş tutub

Sərfəli mobil operator "Nar"ın dəstəyi ilə Azərbaycanda ilk dəfə nitq və eşitmə məhdudiyyətli gənclər üçün "Zəka Fest" inklüziv intellektual oyun turniri təşkil olunub. Beynəlxalq Jest Dili Gününə həsr edilən bu layihə "Şəkərbura Şou"nun təşəbbüsü, "Karlara Dəstək" İctimai Birliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, İctimai Televiziya və digər tərəfdaşların dəstəyi ilə həyata keçirilib. Turnirin əsas məqsədi eşitmə məhdudiyyətli uşaqların sosial inteqrasiyasını gücləndirmək və yaradıcılıq bacarıqlarını inkişaf etdirməklə yanaşı, onlar üçün inkişafetdirici oyunların əlçatanlığını təmin etməkdir.

Turnirdə ümumilikdə 7 komanda mübarizə aparıb. Beş saat davam edən intellektual marafon yeddi raund və final mərhələsindən ibarət olub. İştirakçılar komanda işi və fərdi düşünmə bacarıqlarından istifadə edərək müxtəlif sualları cavablandırıblar. Yarışın nəticəsinə əsasən "Uğur" komandası birinci, "Qızıl" ikinci, "Cəsur" isə üçüncü yerə layiq görülüb. Qalib və digər iştirakçı komandalar "Nar" tərəfindən dəyərli hədiyyələrlə mükafatlandırılıb.




Qeyd edək ki, "Nar" nitq və eşitmə məhdudiyyətli şəxslərin informasiya və ünsiyyət imkanlarının artırılması istiqamətində həyata keçirdiyi layihələrlə beynəlxalq səviyyədə tanınır. Şirkət bu sahədəki sosial məsuliyyət təşəbbüslərinə görə nüfuzlu "Stevie" biznes mükafatına layiq görülüb. Yeni jest dili mobil tətbiqinin dəstəklənməsi də "Nar"ın bu istiqamətdə uzunmüddətli fəaliyyətinin məntiqi davamıdır və inklüziv cəmiyyətin qurulmasına töhfəsini daha da gücləndirir. Mobil operatorun dəstəyi ilə gerçəkləşdirilən bütün sosial layihələr haqqında daha ətraflı məlumatı buradan əldə edə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5042
Sifariş: 1978
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova